PƏRVANƏ MEHMANQIZI



ÖLMƏZ QƏHRƏMAN

"Günəş-MMC"
Bakı-2023

Redaktoru: **Oqtay SARICALI**
şair-publisist

Rəssamı və dizayneri: **Süleyman Mustafaoğlu**

Korrektoru: **Nazim ƏLİOĞLU**
yazıçı-publisist

Pərvanə Mehmanqızı. Ölməz Qəhrəman. Publisistika. Bakı,"Günəş-MMC", 2023. 84səh.



Kitabda qədim türk torpaqlarımız olan Qarabağ bölgəsi və 30 il işğalda qalan ətraf rayonlarımızın azad olunmasında, yəni II Qarabağ müharibəsində şəhid olmuş Polkovnik-leytenant Mehman Şirvanovun döyüş yolu və mübarizəsi haqqında məlumatlar yer almışdır.

4702600017
M———Sifarişlə
0-2023

© **"Günəş-MMC", 2023**



Qələbəni biz şəhidlərin qanı hesabına qazanmışıq. Şəhidlər bizim qəlbimizdə əbədi yaşayır, yaşayacaq. Allah sizə səbr versin. Siz analar, atalar xalqımız üçün, dövlətimiz üçün gözəl insanlar yetişdirmisiniz. O insanların ömrü uzun olmadı, amma onlar əbədiyyətə qovuşdu və onlar öz adlarını Azərbaycan xalqının şanlı tarixinə yazdırdı.

İlham Əliyev
Azərbaycan Respublikasının Prezidenti

Vətən! .... Bu kəlmə nə qədər düşüncəli, mənalı gözəldi. Deyilişi yüksək və hikmətli olan Vətən.. gözəl yurdum olan xalqımın hər bir qarış torpağını qəlbimlə sevirəm. Çünki Vətəni sevmək qəlbdən onu göz bəbəyi kimi qorumaqdı, Vətən naminə canını qurban verməyə hazır olmaq deməkdir. Bəli, xalqımızın igid oğulları olan **Babək, Cavanşir** kimi yadelli işğalçılara qarşı mübarizələri, Vətənə olan məhəbbətləri sevginin bariz nümunəsidir. Nəsildən nəslə ötürülmüş mərd, mübariz xalqımızın igid oğulları canlarını Vətən yolunda tarixə həkk olundu. O tarix ki, nəsildən nəslə ötürülərək, böyük, şərəfli yol keçərək bir iz qoyaraq unudulmayan tarixə kitablara yazıldı. Həyatda şücaətlər göstərən, Vətən naminə çarpışan qəhrəmanlarımızın adları bü gün də xatirələrdə yaşayır. Onların şərəfinə abidələr ucaldılır, adlarına şeirlər, dastanlar qoşulur və mahnılar yazılır. Bəli, Qarabağ uğrunda müharibədə misilsiz qəhrəmanlıqlar göstərən, ölümləri ilə ölməzlik qazanan şəhidlər məhz bizim dövrün qəhrəmanlarıdır. **Ruhunuz şad olsun, Şəhidlərim!**

Bəli, qəhrəmanları tanımaq və tanıtdırmaq niyyəti ilə çıxdığımız uzun bu yolçuluğa Vətəni sevən, qoruyan

canından keçən neçə-neçə igid, şəhid oğul qəhrəmanlarımızın həyatını, gələcək nəsillərə aşılamaqdı məramım. Necə ki, mən varam, sizlərin haqqınızda keçdiyiniz həyat yolunuzu, Vətənə olan borcunuzu bir Vətən övladı, bir insan olaraq qələmə almağı özümə borc bilirəm. Yazılan bu kitablar, dastanlar şeirlərin hər biri Vətən, hər bir haqq yolundan yazılır.

Vətənimizin hər qarış topağı doğmadır. Öz mədəniyyəti ilə seçilən, çox qədim yaşayış məskənlərindən olan Lənkəran diyarı əhalisinin bir çox ən qədim məşğuliyyəti əkinçilik, maldarlıq, balıqçılıqla, ipəkçiliklə fərqlənmişdi. Öz coğrafi relyefi, iqtisadiyyatı və dahi şəxsiyyətləriylə turistlərin marağına çevrilən xoş diyarımızdı. Xüsusilə də məşhur genaralları olan Səmədbəy Mehmandarov və Həzi Aslanov kimi Vətəni, topağını sevən və bu gün də unudulmayan qəhrəmanlarımızdı.

Elə bu gün də Lənkəranın Ürgə kəndinin şəhid qəhrəman oğlu polkovnik-leytenant **Mehman Mirəziz oğlu Şirvanovun** 27 sentyabr 2020-ci il tarixində başlanan 44 günlük Vətən müharibəsi savaşında öz göstərdiyi şücaətindən qəhrəmanlığından, Vətənə olan borcundan öz cəsurluğu, dəlisovluğu ilə adını unudulmayan tarixə yazdıran bir igidin həyat yolundan bəhs edilir.

O, 24 fevral 1980-ci ildə **Lənkəran rayonu Ürgə kəndində** çox zəhmətsevər və Vətənə, elə, obaya bağlı olan Şirvanovlar ailəsində göz açdı. Mehmanın ailəsinə gəlişi sevinc bəxş etmişdi. Beləliklə balaca Mehman ilk məktəb addımlarını 1986-ci ildə Lənkəran rayon Ürgə kənd orta məktəbinə qoydu. Məktəb illərində də daim yaşıdlarından fərqlənmişdi. Bir sözlə, balaca məktəbli Mehman öz dəcəlliyi, şıltaqlığı və cılğınlığı ilə məktəbdə hər bir müəllimlərinin, yoldaşlarının ürəklərində xoş xatirələrdə qaldı...



Beləcə çılğın, yeniyetmə olan Mehman 1997-ci ildə Teymur Zamanov adına Ürgə kənd orta məktəbini bitirdi. Onun çılğınlığından yaranan mərdlik, cəsurluq bir şərəfli hərb peşəsinə yönəltdi. Canında, qanında Vətən eşqi ilə döyünən ürəyi Mehman 1998-ci ildə Bakı Ali Birləşmiş Komandirlər məktəbinə daxil oldu. Çox böyük addımlara irəliyən gənc Mehman 2002-ci ildə Bakı Ali Birləşmiş Komandirlər məktəbini bitirdi. Arzularla irəliləyən Mehman istəyi yetişmiş, yararlı bir zabit olmaq idi. Elə, böyük istəklərinin addımları idi...



Şəhid Mehman Şirvanov gənclik illərində

O, daha da hərb peşəsini mənimsəmək üçün (2002-2003 illərdə) təkmilləşdirmə kurslarında iştirak etdi. Elə həmin ildə də Azərbaycan Silahlı Qüvvələrinin N saylı hərbi hissəsinə Tağım komandiri vəzifəsinə yüksəldi. Mehman Şirvanov 2005-ci ildə baş leytenant rütbəsini alaraq Silahlı Qüvvələrin N saylı hərbi hissəsinə göndərişini aldı. Hər göndərişlərdə nizam-intizamla, öz peşəkar xidmətilə iş kollektivinin hörmətlərini qazandı. Bu yüksəliklər onu daim sadə, səmimi öz insanlığı ilə tanıtdı, sevdirdi. 2006-cı ildə bölük komandiri vəzifəsinə təyin edildi. O, daim öz üzərində işləməkdən müasir hərb peşəsini mənimsəməkdən, yorulmadan 2006-2009-cu-illərdə bir sıra xarici dövlətlərdə **Rumuniya, Turkiyə, Gürcüstanda** NATO-nun ixtisasartırma kurslarında iştirak edərək Motoatıcı ixtisası üzrə bilik və bacarıqlarını artırmışdı. Vətənpərvərlik tərbiyəsi onun keçdiyi həyat yolunun kifayət qədər öyrənib təbliq olunması idi. Şəxsiyyət qüdrəti

cəngavərlik, cəsurluq onun alnına yazılmış qisməti idi. Dahi müdrikin sözü ilə desək: "Hünərə göz yummaq bir hünər deyil"... öz hünəri, iradəsi ilə ən yüksək zirvələrə yüksələn **Mehman Şirvanov kimi....**

Düzdür, bütün peşələr şərəflidir. Lakin hərb peşəsi hamısından şərəflidir.. axı hərbçilərin sahibləri Vətən torpaqlarını qoruyur, canından keçir.

Bir payız günündə büsat dolu yağan yağışlar.... duyğular, düşüncələr fəslidir payız, insan ömrünün gününün də elə duyğulu anları olur ki, o an duyğular, hisslər insanda kövrəklik yaradır. ...

Axşama tərəf olardı, telefonum zəng çaldı, acdım ki, bir xanımdı, adı Arzu. Çox titrək, kövrək səsi ilə ürəyində olan istəyini dedi. Ömür-gün yoldaşı olan şəhid Mehman Şirvanovun həyat yolundan kitabının ərsəyə gəlməsini istədi. Bir yazar olaraq Arzu xanımın səsinə səs verərək yollandıq Şirvanovlar ailəsinə.....

Elə təsadüfdən şəhidimizin biricik körpə balası olan gözəl gözlü Nurayın 19 noyabr doğum günü idi. Demək olar ki, ailənin doğmaları, əzizləri masa ətrafında toplanmışdı. Amma bir tək qonağını gözləyirlərmiş kimi..

O, qonaq ki, bütün qəlblərdə silinməyəcək iz qoyaraq getdi...





Elə hər qapı döyüləndə Nurayın qəmli gözləri bir atam gəlsin deyə ağlamaq istəyirdi. Körpədi hələ.... Böyüdükcə, yaşa dolduqca atasının kim olduğunu anlayacaq. Nuray "Şəhid övladısan" sözlərini qürurla dinləyəcək. Atasızlığını hiss edəndə bu müqəddəs ad ona təsəlli verib və mübarizə ruhu aşılayacaq. Qaçılmazdı ki, atasızlıq böyüyüb bir dağ olur. Bir tərəfdən qürur, bir tərəfdən kədər, boşluq



arxasızlıq.... atasızlıq.... heç kim atanın bu həyatda əvəzi ola bilməz. Amma sənin atan elə bir zirvəyə ucaldı ki, kölgəsi sənə yetər. Atanın zirvədən üstünə olan kölgəsi, şərəfli adı hər zaman sənin başını uca, ayaqda olmağına güc verəcək.

Bəli, qısa, lakin şərəfli bir ömür yaşayaraq əbədiyyətə qovuşmuş, hər birimizə örnək olan şəhidimizin övladı!.. Bu gün onlar bizlərə, cəmiyyətimizə əmanətdi. Çünki şəhid əmanətlərini göz bəbəyimiz kimi qorumalı, diqqət etməliyik. Ataları hər birimizçün canları, qanları bahasına tarix yazdılar. O tarix ki, 30 ilin Vətən həsrətinin 44 günə bizlərə qürurla yaşaddılar.

Öz qəhrəmanlığı ilə tarix yazan və Aprel döyüşlərində sərgilədiyi igidliyindən kifayətlənməyən "**II Qarabağ" və "Qarabağ ordenli"** Murov dağı uğrunda gedən döyüşlərdə



Şəhid Mehman Şirvanovun atası Mirəziz Şirvanov

xüsusi şücaətlər göstərən Vətənə canını fəda edən polkovnik-leytenant Mehman Şirvanov qəhrəmanlarımız kimi....

Evin böyüyü, ağsaqqalı şəhid qəhrəmanımızın nur üzlü atası **Mirəziz Şirvanovla** görüşən zaman sanki bir dağmış! amma ürəyi param-parça olan, özündə güc tapıb başı dik dayanmış bir Ata! Həyatımızın müqəddəs varlığı, ən ülvi canlısıdır. Dünyada ömrü boyu yanan əzəmətli, sönməz atəş olub həyatımızda Ata!.. O atəş ki, işıltısı ilə, istiliyi ilə övladlarının xoşbəxt olmalarına səbəb olan varlıqdı Ata!..

Övladının hər dərdinə, acısına yanıb kül olan daxilində fırtınalar, rüzgarlar qopsa da, hər gün dərdiylə başbaşa qalan, sanki bir gün gələrmiş kimi deyə gözlərinin yaşı ürəyinə dolan yoxluğuna iki il iki ay barışmayan Mirəziz atadan çox ağır olsa da, balası Şəhid Mehmandan danışmağını istədik:

Axan göz yaşları başlamadan öncə hər şeyi bəlli edirdi... Atadan istəyimiz Mehmanın lap kiçik yaşlarını xatırlamaq.

- Oğlum Mehman Şirvanov haqqında danışmaq həm qürurdu, həm çətindi. Bir qəhrəman, vətənpərvər oğlun atası kimi şərəf duyuram. Mehman 7 övladın 4-cü övladı olub, 3 bacıdan sonra Mehman dünyaya göz açdı. Mehman adını da mən qoymuşdum. Gənc yaşlarımdan poeziyanı kitabları oxumağı çox sevmişəm. 7 övlad böyütmüşük əziyyətlə, zəhmətlə, öz əllərimin halal qabarı ilə. Balalarımın arasında heç bir fərq qoymadım. Hər hansı

birinin əlinə tikən batardısa canım yanardı. Amma Mehmanla istəyim ata-bala daxilimdə idi. O da bu istəyi hiss edərdi, mən də. Mehman kiçik yaşlarından istiqanlı mehriban, qayğıkeş idi. O, cəldliyi, iradəsi, dözümlüyü ilə ailədə sevilirdi.. Elə məktəb vaxtları da dəlisov, çılğınlığı ilə müəllimləri və yoldaşlarından fərqlənmişdi. Dərslərini hər zaman yaxşı oxuyardı ki, yüksək qiymətlər alsın. Mehman böyüyə, kiçiyə hörmət edən, ailəsinə bağlı bir oğul olmuşdu. Kəndimiz gözəl təbiəti, yaşıllığı, təsərrüfatı, əkinçiliyilə fərqlənirdi. Mən də öz zəhmətimlə daim kənd təsərrüfatında məhsuldarlıqla məşğul olmuşam. Ailəyə bacardılğım qədər yaxınlara, doğmalara kömək etmişəm. Mehman orta məktəbi bitirdikdən sonra istəyirdim ki, ali məktəbdə oxuyub elə gəlib öz kəndində işə başlasın. Sən demə onun ürəyində başqa istəyi, peşəsi varmış. Sonradan xəbərimiz oldu ki, istəyi hərb peşəsinədi. Çətin, məsuliyyətli olduğu üçün bir ata kimi istəmirdim hərb peşəsinə yiyələnsin.



Amma demək ki, qədərdən qaçmaq mümkün deyilmiş. Belə demək mümkünsə, tale oğlum üçün hərb yolunu seçdi...

Günlərin bir günü hərbi komisarlıqdan evə zəng gəldi. Elə yoxlanışda sən demə Mehman hərb peşəsini seçərək

qeyd etmişdi. Axşam oldu evə gəldik. Dedim,- ay oğul, seçdiyin peşə məsuliyyətli, ağırdı. Onun sözü "Ata, mən o çətin şərəfli peşəni seçdim həyatımda". Bir ata nə deyə bilər, balanın arzusuna ancaq xeyr dua etdim. Ürəyində Vətənə olan sonsuz məhəbbəti, sevgisi onu bu çətin peşədən geri dönüş edə bilmədi. Getdi oxudu, öz savadı, zəhməti ilə bir zabit kimi yetişdi. Mehman peşəsinə bağlı oldu. Kəndə gələn zaman deyərdi: **"Ordunun mənə ehtiyacı var, Ata".** Gedən zaman yollarına xeyr-dua edirdim. Amma nədənsə ürəyimdə bir qorxu vardı, heç kimə söyləmədiyim qorxu.. o qorxu ki....

Göz yaşlarına, acı, kədərli sözlərə Mirəziz atanın sanki nitqi qurudu. Bir anlıq araya süküt çökdü. Özündə güc taparaq sözlərinə davam etdi: -Mən çox güclü insan olmuşam. Çox əziyyətlər, əzablar olub, həyatımda da yolumda da keşməkeşlər olub. Amma bir dəfə gözümdən yaş çıxmayıb. Amma bala dərdi başqa dərd - sağalmaz yaraymış. Oğul dərdi dərd imiş həyatda. Balanı itirmək, onun yoxluğuna alışmaq ən böyük dərdiymiş.

Bütün dərdlər unudulur, ağrılar keçməsə də səngiyir. Amma övlad itkisi, ağrısı, sızıltısı sağalmayan yara qalır. O yara ki, hər dəfəsində qanayır, qanadıqca da daha da böyüyür.

O, sonuncu dəfə gəlmişdi kəndə, evin yan tərəfində belə bir söz dedi: "bu tərəf, ata, şəhidlərə yer olsa daha yaxşı olar. Üstəlik əlilə də işarə etdi ki, bax bu istiqamətdə. Mən təəccüb içində qaldım, nə demək istədiyini anlamadım. Elə bir tək məni 3 üç dəfə boynuma sarılıb qucaqladı. Bir anlıq gözümdə kiçik yaşlarında balaca Mehman əlləri gəldi göz önümə. Elə mən də qucaqlayıb oğulumun qoxusunu içimə çəkdim. Hardan bilərdim ki, son görüşü, son səsidi balamın. Elə hey deyirdi ki, ata, yaxşı olacaq bir tək sən yaxşı ol, özünə yaxşı bax. Mehman ölümün üstünə gülə-gülə getdi.

Balamsız yanan şam kimiyəm, bala dərdi ağır dərd imiş. Mehmanla söndü evin cıraqları...



Qəbrini rüzgarlar, yağışlar döyür.
Ay oğul, gedişin nə qəfil oldu.?
Hər kim hər nə deyir xətrimə dəyir.
Hər gün yuyulmaqdan şəklin də soldu.
Mən sənsiz hələ də sağam görürsən.
Ürəkdə itilmiş bala gəzirəm.
Dağ üstən çəkilmiş dağam, görürsən.
Yanına köçməyə səbəb gəzirəm...

Mirəziz atanın ürəyində o qədər sözlər vardır ki, deyilməmiş, sadəcə düyünlənmiş boğazında bala itkisinin yoxluğunun izahını verə bilməyəcək qədər çarəsiz ata!.... Mənim övladım Mehman elin şəhididir..

Bəli, o söz əsl azərbaycanlı, vətənpərvər ailəsinin məğrurluğunu, əyilməzliyini göstərdi hər birimizə..



Şəhid Mehman Şirvanovun əmisi Əmrulla Şirvanov

Əmrulla Şirvanov bir əmi, böyük olaraq Mehman Şirvanovla ən xoş xatirələrini çox ağır olsa da xatırladı:

Mehman haqqında danışmaq bir əmi olaraq mənə həqiqətən çətindi. Onun yoxluğu hər an hiss olunur. Mehmanın babası Səməd Şirvanov atam Sənhan Şivanovla əmi oğludur. Mən Mehmanın atası Mirəzizlə əmi nəvəsiyik. Azərbaycanın səfalı guşələrindən olan Lerik rayonunun Dico kəndində anadan olmuşuq. 1970-ci ildən Mirəziz və biz Lənkəran rayonuna köçmüşük. Mən orta məktəbi bitirdikdən sonra Bakı şəhərində fəhlə işləmişəm. Öz zəhmətimlə, əziyyətimlə işimə başladım. O zamanlardan dövlət orqanlarında və rayonlarda müxtəlif işlərdə

çalışdığım üçün və işimin ciddi-məsuliyyəti çox olduğuna görə qohumlara, doğmalara vaxt az olardı. Amma yenə də bir böyük olaraq daim qayğılarını çəkib diqqət edərdim. Mehmanın ailəsi zəhmətkeş, sadədir. Qohumlarda, doğmalarda nədənsə hər birindən Mehman daim fərqlənərdi. O, öz qocaqlığı, cəsarəti ilə od-alovdan, işdən qaçmazdı, elə uşaqlıqdan qoçaq oğlan idi. Məktəbi bitirən zamandan həvəsi, niyyəti hərbiyə idi. Böyük həvəslə qürurla çalışırdı ki, şərəfli hərb peşəsinə daxil olsun. Xatırlayıram, Mehmanın bacısının toyu idi. Elə o gündə utancaq halda mənə yaxınlaşıb hərbiçi olmağını dedi. Durmadan hərbi məktəbə getmək üçün hansı fənləri oxumaq, hansı sənədlərin lazım olduğunu bilməyini istədi. Mən də ona sevdiyi peşəsi ilə əlaqəli suallar verərkən məlumatlı olduğunu hiss etdim. Ona daha sonra məsləhətim texniki elmləri yaxşı mənimsəməsini, bir neçə ədəbiyyatla oxumağı tövsiyyələrimi verdim. Mehman gecə-gündüz çalışdı ki, hərb peşəsinə yiyələnsin.

Çünki arzuları, dilәkləri sonsuz idi. O sonsuzluq ki, Mehmanı bizdən alıb geri gəlməyəcək qədər uzaq bir yol...

Bəli, Mehman hərbi məktəbinə daxil olarkən ilk gəlişi bizə oldu. Sevinərəkdən onu təbrik etdim və bir neçə hərbiyə aid olan kitabları məsləhət etdim ki, oxusun.. O, çox tərbiyəli, ədəbli bir oğul idi. Mehmanla yaş fərqimiz çox olduğundan çəkinərdi söz demək üçün, çox qayğıkeş, diqqətcil bir insan idi. O, heç bir zaman çətinliyini dilə gətirib deməzdi. Oxuyub öz savadı ilə peşəkar zabit oldu. Mehmanla daim fəxr edib, qürur hissi keçirirdim. Bayramlarda, tətil zamanlarında da bizlərə, doğmalara diqqətini unutmazdı. Hər il 26 iyun Ordu günü münasibətilə hər birimiz Mehmanı təbrik edirdik. Mehman gənc olmasına baxmayaraq çox həssaz, diqqətcil idi. Demək olar ki, qohumlar arasında böyüklərdən, ağsaqqaldan ən çox ünsiyyətdə olduğu, güvəndiyi bir dost olaraq mən idim. Həmçinin



mənim də yaxın qohumlardan ən çox hörmət etdiyim dost, yoldaş kimi elə Mehman idi. Mehmanın atası Mirəziz xasiyyəti ağırtəbiətli, oruc tutan, dini, imanlı, namaz qılan kəndin hörmətli ağsaqqalıdır. Övladları arasında hər zaman böyük hörmət olub. Yoldaşı vəfat edəndən sonra demək olar ki, qayğıları çoxaldı. İstəyi, arzusu nigaranlığı balası Mehman idi.

Yadımdadı, bir gün mənə Mirəziz ata dedi ki, Mehmanla aranızda dostluq var. O, xəstə, yaşlı atasını düşünsün, ömrümə nə qalıb bilmirəm. Müddətdən artıq xidmətini edib pensiyaya çıxa da bilər və gəlib kənddə müəllim kimi fəaliyyət göstərə də bilər. Bizə doğma olan Mirəziz ağsaqqala Mehmanla danışacağıma vəd etdim.

Aradan bir xeyli vaxt keçdi. O vaxt, zaman ki, Mehmanı doğmalarından ayırmağa çalışırdı.....

Onu sonuncu dəfə 30 avqust 2020 ci ildə danışıb elə birbaşa bizə gəlmişdi. Hətta bir qutu bal da gətirmişdi. Birgə söhbət etdik, dərdləşdik. Onun nə qədər canında, qanında vətənpərlik, el-obaya bağlı olduğunu bir daha gördüm. Söhbətimiz zamanı atasının nigaran olduğunu vurğulayanda onun sözü belə oldu: "Əmi, belə bir vəziyyətdə mən ordunu, xidmətimi qoyub gələ bilmərəm, biz hələ ermənilərdən qisasımızı almamışıq. Ona görə də çıxmaq söhbəti ola bilməz, əsgərlərimi hər zaman hər şeyə hazır olmaqlarını aşılayıram. **"Əmi, bizdə öldü var, döndü yoxdu".** Mehmanın ürəyində olan Vətənə sonsuz sevgisi və dediyi sözləri məndə qürur hissi yaratdı. Mən də sənin yerində olsaydım eyni düşünərdim - dedim. Onu yola salmaq istəyəndə nərahat olma, əmi, dedi, onu qucaqlayıb köksümə sıxdım. Sanki özü hiss etmişdi ki, son görüşüdü doğmalarıyla. Çox çətin də olsa son gedişini xatırlayıram. Onun iri addımlarla pilləkənləri enməyi gözlərim önündə canlanır. Mehmanla son dəfə görüşüb sağollaşanda, nədənsə göz yaşlarımı saxlaya bilmədim. Sən demə görüşü elə son vida gəlişiymiş. Onun 23 sentyabr son səsini

mesajını telefonumda xatirə olaraq qalır. Sentyabrın 27-də Lənkərandan Bakıya gəlirdim. Yollarda xeyli sayda hərbi maşınlarını, təcili tibbi yardım maşınlarını görən zaman ürəyimdə bir qorxu yarandı. İkinci Qarabağ Vətən Müharibəsi başlamışdı. Saat 11 radələri olardı. Mehmana zəng etdim cavab olmadı. Elə bir neçə saatdan sonra Mehmanın ən uca şəhidlik zirvəsinə ucalmağını eşitdim. Bir anlıq nə olduğunu anlaya bilmədim, heç bir zaman yaşamadığım yoxluq sarsıntısını yaşayaraq, ağladım. Onu öz övladım, dostum, kiçik qardaşım kimi istəyirdim. O, öz məqsədinə nail olub şəhadətinə qovuşdu. Mehman Şirvanov adını unudulmayan tarixə yazdırdı. O, Şirvanov soyadımızı və Mirəziz atanın adını əbədiləşdirdi. Biz hər birimiz həyatla vidalaşan zaman unudularıq. Amma Mehman Şirvanov və onun kimi Vətən, torpaq yolunda canını vəda edən igid qəhrəmanlar bir ömürlük tarixdə qalaraq əbədi yaşayacaqlar. Mehman Vətən müharibəsi başlanan günü öz taboru ilə canını qurban verən yüksək rütbəli zabit komandir oldu. O, işğalda olan torpaqlarımızın qələbə eşqi ilə yaşadı və vuruşdu. Mehmanın arzusu ordumuzun böyük qələbəsini görməyi idi. Bəli, şəhidliyə ucalmış igid qəhrəmanlarımız doğmalarının qəlbini gizildədən müqəddəs bir duyğudur. Amma onlar bizlərə, xalqımıza 30 il ərzində çəkdiyimiz Vətən həsrətinə, əzab-əziyyətə son qoydular. Onları itirmək nə qədər çətin ağır olsa da, ən böyük təsəllimiz odu ki, işğalda olan torpaqlarımızı, erməni vandallarında olan doğma torpaqlarımızı, dədə-babalarımızın uyuduğu məzarlıqları, dini və tarixi abidələrimizi işğaldan azad etdilər. Bütün dünyaya sübüt etdik ki, Azərbaycan xalqının hərbi qüvvəsi ordusu bir yumruq olaraq qalib gəldi. Bəli, Müzəvvər Ordumuzun gücü ilə qalib gəldik. Azərbaycan xalqı, dövləti yaşadıqca, var olduqca şəhidlərimiz yaşayacaq, gələcək nəsillərimiz onları yad edib unutmayacaq. Onların hər birinin qəhrəmanlıqlarından kitablar, dastanlar yazılacaq, mahnılar oxunacaqdır, filmlər çəkiləcəkdir.



Əziz, doğma qardaş dost olan Mehmanın ruhu qarşısında deyirəm: Mirəziz qardaşımın sevimli və yoxluğuna barışmadığı şəhid balası Mehman! Sənin dillərdən dilə düşmüş, bu gün atalar sözünə çevrilmiş "Şəhidlər bir ailəyə, bir el-obaya deyil, bütün xalqa aiddirlər". Evin yox elin oğlu oldu, şəhid polkovnik-leytenant Mehman Şirvanov. Sən ölmədin daim doğmalarının, bizlərin yanındasan. Ruhun şad olsun!



Şəhid Mehman Şirvanovun qardaşı Nəriman Şirvanovla

Mirəziz atanı sakitləşdirməyə çalışan, öz cəsurluğundan geri qalmayan, gülən gözlərində ağlayan qardaşını axtaran ***Nəriman Şirvanov*** *Mehmanlı günlərini xatırladı:*

Mənim də hərbiyə marağım, istəyim çox olmuşdu. Qardaşım Mehman hərb peşəsində idi. Yenidən hərb peşəsini seçməyimi valideynlərim razı olmadı. Amma hərbi xidmətdə olarkən öz borcumu şərəflə yerinə yetirdim. 2009-cu ildən FHN-nə qəbul oldum və bu günə kimi bu işimdə çalışıram.

Nə qədər çətin, ağır olsa da Nəriman Şirvanov qardaşlı günlərini dilə gətirdi: Qardaşın qardaşı itirmək həyatda sanki bir qolumu, bir yanımı itirməyim boşluğudu. O,

boşluqda çox ağır dərddi. Qardaşım Mehmanla xatirələrimiz çox olub. O, məndən üç yaş böyük idi. Üç bacılarımdan sonra böyük Mehman idi. Biz zəhmətsevər sadə kənd ailəsində böyümüşük. Ailəmiz çox mehriban günlərimiz qayğılı keçmişdi. Hər şey bütöv və xoşbəxt, sadə həyatımız var idi. Atam öz zəhmətilə təsərrüfatla məşğul olar, Anam isə uzun müddət bağçada aşbaz işində çalışardı. Atama mən də, Mehman da təsərrüfat işlərində kömək edərdik. Anam sonralar işindən ayrılıb evdə olmağı qərara aldı. Beləliklə, biz Mehmanla əkin-biçinlə atamıza kömək olduq. Bunlara baxmayaraq Mehman dərslərini də əla qiymətlərlə oxuyardı. Hər zaman fərqlənərdi sinif yoldaşlarından. Məndən böyük olsa da çox çılğın, dəlisov biri idi. Uşaqlıqda birgə oyunlar oynardıq. Hər zaman da mənim arxamda olardı, izn verməzdi ki, kimsə məni incitsin. Oda-alova atılan uşaq idi. Ürəyi çox saf, mehriban qayğıkeş olmuşdu. Elə istəyirdi ki, tez böyüsün, yaxşılıq edib hər kəsə köməklik etsin. Ailəyə, dosta, qohuma can yandıran hər kəsin köməyinə qaçardı. El-obasına, kəndinə, torpağa bağlı övlad idi. Elə istəyirdi ki, tez böyüsün. Canında-qanında vətənpərvərlik yüksək idi. Sanki elə ucalığa can atırdı. Özünü topağa, el-obaya borclu hesab edirdi. O, elə qardaş oldu ki, tayı-bərabəri olmayan. Özündən başqa hər şəyi hər kəsi düşünərdi. Özünə məxsus xüsusiyyətləri vardı. Dalaşqan idi, qarşısında elə işi yox idi ki, ondan keçməsin. Nə olur-olsun tapşırılan işi layiqincə yerinə yetirib gələrdi. Heç bir şey gözündən yayınmazdı.

Məktəbi bitirəndən sonra peşə seçimi hərb peşəsi oldu. Özünü hərbidə bir zabit kimi görərək o, yola çıxdı. Yolları daim yüksəlişlərlə oldu. O, işinə bağlı olmuşdu. İş kollektivi, əsgərlərini daim düşünərdi. O qədər əziyyətli yolda heç zaman dilə gətirib deməzdi ki, bir problemim var.

Elə sonuncu dəfə beş günlük kəndə gəlmişdi. O, kiçik yaşlarından qol saatlarını çox sevərdi. Bir neçə evdə olduğu üçün evdə, kəndimizdə sanki toy-bayram idi. Sən demə



bizimlə, qohumlarla vidalaşmaqcün gəlibmiş. Getdiyi sağollaşdığı hər yerdə bir nişan qoyaraq çıxıbmış. Birində saatını, eynəyini ən yaxın dostuna hərbi geyim formasını vermişdi. Hər zaman mənə deyərdi yaxşı olacaq hər şey. Bir yerdə elə evin yanlarında dayanıb söhbət etdik. Evin yan ətrafında olan yeri göstərib dedi: Burda niyə şəhidlərimizə yer yoxdur. Yer olmalıdır ki, hər kəs şəhidlərimizi ziyarət edə bilsin. Sən demə elə əbədi gedəcək evini göstərirmiş.

Elə son səsi 26 sentybr sonuncu zəngimi açarkən danışdıq: Hər şeyə hazır ol hazırlıqlı ol. Hərşey sənə əmanət. O, danışdıqca sanki mənə yuxu imiş. Qardaşım heç zaman işinin çətinliyindən, əziyyətindən danışmazdı. Sanki gülən gözlərində, sakit ürəyində deyiləcək çox sözü vardı. Sağollaşsaq da ürəyim hec rahat deyildi. Axşama yaxın zəng vurdum zəng çatmadı. Daha da narahatlığım artmışdı. Elə gecədən sabaha gözlədik.

27 sentyabr müharibənin ilk günü qardaşımın şəhid xəbəri gəldi. 28 sentyabr saat 10-11 radələrində onun nəşi gətirildi. Bütün cənub bölgəsi Masallı, Lənkəran, Astaradan vətənpərvər insanlar toplaşaraq qardaşım Mehmanla vidalaşdılar.

Qardaşım Mehmanlı günlərimdən nə qədər danışsam günlərlə bitməz. O, fəxr ediləcək qardaş idi. Bəli, bu gün onunla nəinki ailəsi kənd, el, oba, xalqımız qürur duyur ki, ordumuzun Mehman Şirvanov kimi Polkovnik-leytenantı olub.

Elə bu yerdə qardaş itkisini şair belə vəsf etmişdi:

Ürəyindən şirə çəkib, yetişən,
Nə sağalan, nə kəsilən, bitişən.
Köksünü göynədib, qəlbinə düşən.
Silinməz yaradı qardaş ölümü.



Şəhid Mehman Şirvanovun bacısı Sevda xanım

Nəriman bəyin bitər-bitməz sözləri göz yaşları içində danışmağa can atan şəhidimizin **böyük bacısı Sevda xanım** dolub boşalan qəm yükünü, ağrı-acını ürəyində daşıyan vaxtsız dünyadan köçən anasından, günəşinin vədəsiz sönən qardaşlı günlərini xatırladı:

Atamdan sonra arxam, dayağım olan qardaşım Mehman haqqında danışmaq ağrılı-acılıdı. Elə düşündükcə xatirələrdə qardaşlı analı, qayğılı günlər gəlir yadıma. Çox qayğılı, səmimi ailəmiz olub. Valideynlərimiz zəhmətsevər hər birimizə sevgi ilə böyüdüblər. Anamla laylalı günlərimizə saf arzularımızı xatırlayıram. Bu gün ana olsam da anama ehtiyacım var. Bizim hər birimizi yana-yana, gözünün nurunu canını qurban edən anamıza borcluyuq. Əziyyətilə 7 övlad böyüdüb həyata ataraq, özü isə vaxtsız, zamansız həyatla vidalaşdı. Anamı itirmək hər birimizə dərd oldu.

Nə xoşbəxt imişəm bir zaman Allah!
Analı, qardaşlı günlərim vardı.
Kimdənsə inciyib kədərlənəndə
Anam saçlarımı sığallayardı..

Nigaranlığı bir Mehman idi. Onun işi ilə əlaqədar evə gec gəlməsi zəhməti anamın sanki dərdinə çevrilmişdi. Nə



xörəklər hazırlayırdısa, evdə elə bir tək Mehmana qalsın o heç nə yemədi, bizimlə elə hey ana ürəyi dözməzdi, elə ona görə də Mehmandan nigaran getdi Anam!.. Anamı vaxtsız bizlərdən ayrılması mənə böyük bacı olaraq əzab oldu. Qardaş-bacılarıma ana əvəzi oldum. Həyatın sınaqları məni ruhdan salan zaman dərhal Mehmana zəng edərdim, ya evə gələndə bölüşərdim onla. Ən çətin zamanlarımda yanımda olan dəstəyim olmuşdu. Bu gün bir şəhid bacısı olaraq əzabdı mənə elə bir qardaşı itirmək və danışmaq. Onun haqqında nə qədər günlərlə danışsam yenə də azdır. Elə kiçik yaşlarından mərdliyi, cəsarəti ilə hər yerdə fərqlənirdi. Heç nədən qorxmazdı, çəkinməzdi. Hər işin öhdəsindən layiqincə gələrdi. Zəhmətsevər bir qardaş idi. Ona görə də əziyyətli, şərəfli yolu peşəni seçdi. O, işini hər şeydən üstün tutardı. Kəndə gələn zaman hər birimizlə fərdi görüşərdi, amma heç işindən söz açmazdı. Elə biz bacılarla da zarafatyana deyərdik: gəl, bitir işlərini səni doyunca görək səsini eşidək həsrət qoymusan bizi özünə. Mehman xoş təbəssümü ilə deyərdi: "narahat olmayın, gələcəm özünüzə yaxşı baxın". Mehman hər birimizə, qohumlara, yaxınlara can yandıran, kömək edən idi. Heç istəməzdi ki, gözümüzdən bir damla yaş olsun. Amma indi göz yaşlarımla yoxluğundan danışıram. O, işini şərəflə peşəsini hər şeydən üstün tutdu. Mehman üçün Vətən eşqi ən ülvi hiss, şəhidlik isə ən uca məqam idi. O, bizi doğmalarını tərk etsə də ən böyük arzusuna qovuşdu. Qəhrəman, igid, cəsur qardaşım olan **Polkovnik-leytenant Mehman Şirvanovla fəxr edirəm.** Qürurlanıram ki, elə bir qardaşın bacısıyam.



Şəhid Mehman Şirvanovun bacısı Kəmalə xanım

Elə böyük bacıya dəstək olan nur üzlü şəhidimizin ikinci bacısı Kəmalə xanım qardaşlı günlərini göz yaşları ilə danışdı:

Anamla Mehmanlı günlərimi çox çətin olsa da xatırlayıram. İkisi də canımdan bir parça idi. Elə çox istəyərdim yenidən qayğılı, analı, qardaşlı günlərimizə geri qayıtsın. Anamla Mehman həyatda olsun. İki dərd ortağım, sığındığım, güvəndiyim arxalar yoxdu, həyatda çox çətindi mənə bir bacı olaraq. .... Anam, atam hər birimizi zəhmətlə halallıqla böyütdülər.

Mehmanın çox kiçik yaşlarını xatırlayıram:

Onun sol qolunda qara bir iri xalı var idı. O, qara xala həmişə mənim saatım var deyərdi. Evdə onu əzizləyib oxşayarkən söylərdik ki, mənim saatım var. Günün hansı vaxtından asılı olmayaraq soruşardıq ki, Mehman saat neçədi? Hər zaman da saat 9 deyərdi. Mehmanı kiçik yaşlarında o qədər qoxlayıb öpürdüm yanaqlarından, çox gülərüz, mehriban idi. Kiçik yaşlarının xatirələri var ürəyimdə:

Demək kəndimizdə həyətdə bir küp vardı. Yelləncəyi xoşladığı üçün əmim qızı Mehmanı yelləncəkdə bərk yellədi. O, qorxmurdu xoşuna gəlirdi, amma necə oldusa



Mehman yelləncəkdən yıxıldı. Tez qaçdım yanına, gördüm ki, balaca əlləri sıyrılıb qanayıb. Sakit halda dayanıb heç qorxmurdu ki, əllərində sıyrıltı var. Onun kiçik əllərinin qanayıb sıyrılmasına ürəyim dözməyib param-parça olmuşdu. Hətta dözməyib ağladım. Amma indi düz iki il, iki aydı üzünü səsini eşitmədiyim qardaşıma necə dözüb dayanıram!..... Böyük dərddi, acıdı elə bir qardaşı itirmək. O, qədər valideyn istəyən oğul idi. Heç zaman qəmgin olmağını görməzdik, onun daim gözləri xoş siması işiq saçardı. Kəndə evinə gələn zaman daim sadəliyi ilə seçilirdi. El-obasına, böyüklərə hörməti edən oğul idi. Hər birimizə səbrli olmağı deyərdi. Bir gəlişini xatırlayıram fevral aylarında:

Mehmanın işinin məsuliyyətli çətinliyinə görə evə aylarla gələ bilməzdi. Elə oldu ki, 7 aydan sonra kəndə gəldi. Onun seçdiyi peşə ciddi, ağır olması anamı daim nigaran edərdi. Bizlə bir olmadığına görə anamın hazırladığı xörəklərdən dada bilmədiyiçün ürəyi daim Mehmanda idi. İstəyirdi ki, bir tikəni Mehmana aparsın. Elə son illərdə anam xəstə yatağından qalxmağı çox çətinləşmişdi. Mehmanı işə yola salmaq üçün qalxa blmədi ayağa. Ayaqda olan zaman ana xeyr-duasını bir də Quran kitabını başının üstündə edib deyərdi. Allahım bütün əsgərləri qoru Mehman balam da onların içində.

Onu elə qucaqlayıb sarıldım boynuna opdüm ki,....

Çox utancaq, abırlı, ismətli idi. Qonaqvərpər, evə kim gələrdisə qayğı, diqqət göstərərdi. Anama bənzərliyi çox idi. Bir neçə gün qaldı evdə, qayıdıb getdi.

Aprel ayında gedən döyüşlərdə Mehmanın qəhrəmanlıqları çox olmuşdu. Döyüşlər gedən vaxtlarda anam da xəstə idi. Qalxa bilmirdi yatağından. Hər zaman ayaqda olanda Quran kitabını Mehmanın başının üstündə edib.

Anamın ağrıları çox olduğuçün canı nə qədər ağrısa da elə düşündüyü Mehman olmuşdu. Elə xəstə yatağında olarkən Mehmana əl açıb dua etdi, dedi ki,.. **"Allah, balamı qoru, salamat gəlsin, oğlum evinə ən böyük istəyim ona övlad versin, məni onun balasına qurban versin. Elə də oldu, demək anam oktyabrın 23-də dünyasını dəyişdi, noyabrın 19 da qardaşımın bir qız balası dünyaya gəldi Nurayımız.** Elə Mehmandan nigaran idi, onun çətinliyinə əzablı yollarına bir ana ürəyi dözə bilmədi. Anamın zamansız bizi tərk etməsi hər birimizi cox pis sarsıtdı. Mehmanı sanki çökdürdü. Mehman çox dözümlü, səbrli, iradəli idi, ailədə heç birimiz ağlayan görməmişdik. Anamızın itkisində Mehmanı hönkür-hönkür ağlayaraq gördüm. Dedim ki, Mehman, ana dayanmazdı sənin bu göz yaşlarına. Elə kənara qırsanıb ağlayırdı. Dözülməz dərddi, bizi gərək belə tez tərk etməyəydi. Ondan heç doymadıq ki!... Mehmanla nə doyunca danışa, nə görə bildik. Biz bacılar qardaşdan doymadıq. Gülüb haraylıyıb, səsləyə də bilmədik. Sığmırdı bu cahana, elə sığmayaraq da elin oğlu olaraq da getdi:. Gedişi bizə dərd oldu.

Mehman elə bir peşəkar zabit olmuşdu ki, adı bu gün də yoldaşları tərəfindən hörmətlə anılıb xatırlanır. Mən hər zaman qardaşımla fəxr edib, qürur duymuşam, bu gün də fəxr edirəm ki, bir qəhrəman, igid oğlun adını tarixə yazdıran polkovnik-leytenant Mehman Şirvanovun bacısıyam..

Elə şəhid qardaş itkisinə şair belə vəsh etmiş:

İtirdim huşumu xəbər gələndə
Çağırdım, ağladım, dizimə çırpdım.
Ən ağır hissləri mənə yaşatdın.
Qardaşım, sən məni kimə tapşırdın?





Şəhid Mehman Şirvanovun bacısı İlhamə xanım

Doğrudur, qardaşsız bacılar ağlar deyiblər. Qardaş yoxluğuna, acısına barışmayan 3-cü bacı İlhamə xanım Mehmanlı günlərini belə xatırladı:

Qardaşım Mehmanla xatirələrimiz mənimlə də unudulmaz və çoxdu. Bir anlıq kiçik yaşlarına qayıdım. Qardaşımla iki yaş fərqimiz olub, elə kiçik yaşlarından dəcəl, qorxmayan, dəlisov uşaq olmuşdu. Mehman hələ məktəbə getmirdi. Demək kənddə nənəmgilin həyətinin yanlarında oynayırdıq. O, cox sevərdi uşaqlarla toplanıb oyunlar oynamağı. Elə oldu ki, oyunda qaçmalı oldu. Mehman durmadan qaçırdı, əlində olan böyük qəpik boğazına düşdü. O zaman Mehman sanki ikinci dəfə həyata qayıtmışdı. Qorxub elə qışqırırdım səsimə, harayıma qonşu gəlmişdi və Mehmanın əliylə boğazından qəpiyi çıxarıb həyata qaytarmışdı. Üz siması sanki boğulmuş hala gəlmişdi. O günü o qədər qorxu içində qalmış idim, qardaşımı bir daha görməyəcəyəm deyə. Amma Mehmansız iki ildi göz yaşlarında boğularaq dayanıram. Çox çətindi qardaşı itirib, onun yoxluğundan danışmaq...

Mehmanın dəcəllikləri çox idi. Hətta o qədər qorxmayan, mərd idi ki, hərdən bizi qorxudar, həyacandırar, hərdən də güldürərdi. Elə bir dəfə Mehman çox oynayıb

qaçmışdı. O, dostları ilə oynamağı çox sevirdi. Elə istəyirdi qaçsın, oynasın. Elə o günü də çox qaçdı-tutdu, o qədər çox oynamışdı ki, yorulub lapedin içində girib yatmışdı. Onu o qədər axtarmışdıq, həm də çox qorxmuşduq ki, Mehmanı itirdik...

Heç düşünə bilməzdik ki, balaca Mehman böyüyəcək, bizi vaxtsız tərk edəcək....xatırladığım xatirələr, unudulmaz xoşbəxt günlərimiz idi. Ən qayğılı analı, qardaşlı günlərimiz idi. Sən demə qarşıda nə fırtınalar gözləyir bizi.....

Mehman işinin çətinliyi, məsuliyyətli olduğuçün gec gələrdi kəndə. Elə gələn zaman da bir neçə günlük qalıb işinə qayıdardı. Çünki işini, hərb peşəsini çox sevərdi. Mehmanın ən çox düşündüyü işi idi. Sonuncu dəfə kəndə gəldi, 5 gün qaldı. Hec düşünməzdik ki, Mehmanın bizlə sonuncu görüşüdü. Elə gedib hər birimizlə yaxın qohumlarla vidalaşırdı. Hər getdiyi evlərdə bir nişan əşyasını qoyub çıxmışdı. Bu gəlişində daha çox qalmasını istədim amma hər zaman oldu kimi işini düşünərək getdi. Hərb peşəsini hər şeydən üstün tutdu.

Mehmanla son dəfə görüşüb sağollaşanda - getmə deyə səsləmək istədim, qardaş -deyib ağlamaq istədim.

27 sentyabr müharibə olan günü nədənsə halım, əhvalım çox pis içimdə bir hiss vardı. Amma nə idi onu anlamırdım. İlk işim istədim televizoru açım. Amma qonşuların səsküyü, harayı məni bayıra cıxarmağa apardı. Sən demə qohum, tanış, hər kəs atamın evinə qaçır. Hər kəsin xəbəri var Mehmanın şəhid olmağından, bir məndən başqa... elə o günü dünyam qaraldı. O gün qara yazıldı həyatımıza.. Mehmanı bu dəfə bir ömürlük itirdik. Evimizin sevinc nəşəsi, fərəhi, işiği söndü gedişiylə. Hər birimizin ürəyində köz etdi, sağalmayan yara etdi. Mehman qürurum, fəxrim idi. Bu gün də bir şəhid bacısı olaraq qardaşım **Polkovnik-leytenant Mehman Şirvanovla fəxr edirəm..**





Şəhid Mehman Şirvanovun bacısı Ramilə xanım

Yoxluğuna barışmayan və içində alışan, yanan Ramilə xanım qardaşlı günlərini xatırladı:

Qardaş üçün gözəl sözlər deyiblər, amma qardaşım qədər gözəl sözlər tapa bilmirəm. Mehman qardaşım sözlərlə, cümlələrlə ifadə edilməyəcək qədər dəyərli, qiymətli idi. O, məndən beş yaş böyük olsa da: mən balaca bir qız o məni kölgəsilə qoruyan nəhəng bir çinar ağacı olmuşdu.

Mehman çox istiqanlı, ailəsinə, bacılarına bağlı qardaş idi. Hər zaman nə olursa olsun, daim yanımızda olardı. Lakin seçdiyi şərəfli hərb peşəsi onu ailəsindən, bizlərdən uzaq etmişdi. Mənim 12 yaşım olardı Mehman hərbi peşəsinə gedən zaman. Hər gəlişiylə üzümüzdə gülüş, evimizdə bayram olardı. Anam sağlığında Mehman evə gələn zaman çantasında hərbi geyimlərini gətirərdi. Çox zaman da geyimlərinin təmizliyi üçün mən edərdim. Mehman o qədər təmiz, səliqəli hər şeyin yerini bilən idi. Əl dəsmallarından çox xoşum gəlirdi. Hətta bir neçəsini təmizlərkən evdə saxlayardım. Ailə həyatı quranda dəsmallarının bir neçəsini özümlə aparmışdım. Elə bu günədək bir neçə əl dəsmalı məndə qalıb. Açıb qoxlaya bilmirəm, sanki ürəyim parçalanır.

Qardaşımla çox xatirələrim var. Demək mən kiçik olarkən gecə yatanda bizi qorxudardılar. Tez yataq deyə gözlərimi yumub, amma qorxardım. Heç sevmirdim qaranlıq gecələri. Mehman tələbə idi, evə gəlmişdi. Hər zaman olduğu kimi hər birimizin qayğısına qalardı. Elə dedim ki, mən yata bilmirəm, gecələr qorxuram. Mənə dedi: "sənə ən sadə yol olsun yatmaq üçün, başını balınca qoy, heç bir şey fikirləşmə, qorxulu hec bir şey olmayacaq. Onun o sözü mənə o gündən məlhəm oldu. Rahat yatmağımın səbəbi oldu. İndi yuxularımın ərşə çıxmağımın səbəbkarı da Mehman oldu. Sabahadək dayanıram ki, Mehmanı bir tək görüm. Ona qardaş deyib səsləyim, boynuna sarılım. Bir tək umidlə gözlərimi bir anlıq yumub yuxuya dalıram ki, yuxumda da olsa, Mehman qonaq gəlsin....onun hər gəlişini həsrətlə gözləyirdik, indi isə yoxluğunun acısını çəkirik.

Mən hər zaman qardaşım Mehmanla fəxr etmişəm. ***Bu gün də fəxr edirəm ki, şəhid polkovnik-leytenant Mehman Şirvanovun bacısıyam.***

Dərdim acı əlacı yox bu dərdin,
İtgi ağır, qardaşımı itirdim.
Söz əlacsız, yaddaşımı itirdim,
Mehmansız mən bir dünyamı itirdim..



Vətənindən, evindən uzaq olan İradə xanım eşidəndə ki, şəhid qardaşı Mehmanın keçdiyi döyüş yolundan kitab yazılır, göz yaşlarını, həsrətini sığdıra bilmədi və qardaşlı günlərini xatırlayıb bizimlə bölüşdü:



Şəhid Mehman Şirvanovun bacısı İradə xanım

Mən 17 yaşımda ailə həyatı quraraq xarici ölkəyə getdim. Mehman məndən yeddi yaş böyük idi. Çox gözəl xatırlayıram qardaşımı. Hələ kiçik yaşlarından qayğıkeş, əziyyətkeş, hər birimizin qayğısına qalardı. Çox ağıllı, mərd, cəsur idi. Mənim on yaşım olanda Mehman öz şərəfli hərb peşəsinə daxil oldu. Dəlisovluğu, cılğınlığı onu istədiyi yoluna çıxartdı. İşinin çoxluğu, məsuliyyəti görüşməyimizçün ayları alırdı. Nə zaman ki, səsini eşidirdim nigaranlığım, həsrətim sonlanırdı. Belə desək ildə bir, ya iki dəfə görüşərdik. Ailəmdən, vətəndən uzaqlıq mənə daha çətin idi. Valideynlərimi, bacılarımı görməmək mənə çox çətin idi. Mehman ailəyə bağlı idi. Elə hər dəfə kəndə gələn zaman mənimlə eyni zamanda gələrdi ki, mənlə də görüşsün. Evdə olan zaman toy-bayram olardı, hər kəs sevinərdi. Mehman çox qayğıkeş, diqqətcil olub. O, nə qədər çətin, əziyyətli peşədə çalışsa belə, özəl günlərimizi heç zaman unutmazdı. Bayramlarda, doğum günlərimizdə danışardıq. Elə sonuncu zəngini, səsini xatırlayıram: avqust ayının 9-da doğum günüm idi. Həm mesaj yazmışdı, həm də danışdıq. Açdım, səsini eşidib o qədər sevindim, sevindiyimdən göz yaşlarına

boğuldum. Mənə xoş sözlər -Allaha əmanət olun, özünüzə yaxşı baxın. Sizi çox istəyirəm. Elə söylədiyi sözləri də mesajla yenidən atmışdı mənə. Uzaq yerdə olmağım məni daha da qəhərləndirdi. Sən demə elə sonuncu zəngi, səsi idi. İki il keçib, yoxluğuyla barışa bilmirəm, hər gün son sözlərini oxuyub boğuluram qardaşsız. Mehman bizi vaxtsız tərk etdi. Onun yoxluğu ailəmizi çox yandırır. Mehman haqqında nə qədər danışsam bitməz. Onunla daim fəxr etmişik. O, Vətəni, el, obası yolunda canından, qanından keçərək ən uca şəhidlik zirvəsinə yüksəldi. Bu gün də qürurla söyləyirəm ki, mən polkovnik-leytenant şəhid Mehman Şirvanovun bacısıyam.

Elə ürəyi hər gün yanıb alışan göz yaşlarında boğulan Arzu xanım can yoldaşını Mehmanlı günlərini bizimlə bölüşdü:

Arzu xanımın axan göz yaşları sanki dil açıb ilk sözlərə belə başladı. *Heç bir xanım dünyaya güclü doğulmur, həyat onu əzablarla, acılarla güclü olmağa məcbur edir:*

İstərdim uşaqlıq illərimə qayıdım, çox qocaq qız idim, elə oğlan kimi böyümüşdüm. Dərslərimi yaxşı oxuyardım. Valideynlərimin sevimlisi, ərküsöyün qızları idim. Bir tək mən, qardaşım. Atam, anam zəhmətlə boya-başa çatdırdı bizləri. Mən heç zaman inanmazdım ki, nə vaxtsa hərbiçilə ailə həyatı quram. Elə evdə olarkən eşidərdim ki, hərbiçilərin həyatı, işi məsuliyyətli, zəhmətlidi. Ürəyimdə onların həyat tərzinə köçəri quşlar deyərdim. Atam Mehmanın ailəsi ilə qohum olmuşdu. Bu dostluq bizi bir şmürlük əbədiyyətə qovuşdurdu. Ailələri ailəmizlə çox yaxın idi. Amma bir insan olaraq atam Mehmanı çox istəyirdi. Elə atamın istəyilə də bizim Mehmanla ilk tanışlığımız oldu. 19 yaşım vardı, onun ilk səsini, ilk gördüyüm zaman.. aprel ayının 4-də danışmağımız oldu. İlk sözü o olmuşdu ki, hərbiçiyəm, hal-hazırda da xidmətdəyəm. Onu görən zaman necə səmimi, sadə, vətənpərvər insan olduğunu sezmişdim. İşini hər şeydən



çox istəyirdi. Beləcə bizim yaxın münasibətimiz, doğmalığımız başladı. Onu bir qayğıkeş insan olaraq çox istədim. Çox əziyyətkeş, zəhmətli həyatı vardı. Bu doğmalıq bizi həyat yollarımızı bir etməyə bağladı...

2010-cu il avqustun 8-i həyatımızın ən unudulmaz, xoşbəxt evlilik gününümüzü yazdıq.

Zəhmətli həyatına dəstək olmaqçün onunla əhd-peyman bağlayıb həyatımızın yoluna çıxmağa qərara alanda bilirdim ki, aylarımız, illərimiz başqa-başqa yerlərdə keçərək yaşayacağıq. Çünki Mehman hərbçi idi, bir Vətən ömrü yaşayırdı. Bilirdim ki, hərbçi yeganə peşədir ki, bu peşənin mənası, məramı Vətəni qorumaq və canından keçməkdi.

Mehmanla çox xoşbəxt günlərimiz oldu. Elə bir müddətdən sonra işiylə əlaqədar Sumqayıta gəldik. Mehman ailəyə bağlı insan idi. Mənə hər zaman deyərdi ki, Arzu, arzularımın arzususan. Sanki bir uşaqsan, səni böyüdürəm. Gəzməyi, təbiəti çox sevirdi. Neçə günlük evə gələn zaman nə istərdim edib könlümü xoş edərdi. Birgə gedib gəzib istirahət edərdik. Beləcə günlərimiz ailədə çox xoş keçirdi. Mehmana çox bağlı idim. Onu bir an görməsəm, səsi gəlməsə həyat mənə dar gəlirdi. Amma bu istəyimizlə həyat bizi sınağa çəkdi. Uzun illər övlad həsrəti çəkdik. Mehman daim mənim yanımda olar, dəstək olurdu, əllərimi heç buraxmadı. Ətrafımızda olan uşaqları görərkən boşluğu hiss edirdim. Mehman elə olardı ki, günlərlə gəlməzdi evə, mən də çox darıxardım. Amma gələn zaman öz şirin zarafatlarıyla məni sevindirərdi, izn verməzdi ki, fikirli olum. Çünki analıq hisslərini, duyğusunu, necə olmasını istədim. Arzularımızdan ilk dilədiyimiz övladımızın olması idi. Bir qadın, xanım olaraq mənə çətin idi. Ailələrimizdə çox istəyirdi ki, bizim övlad arzumuz çin olsun. Mehmanın anası xəstə yatağında idi. Çox qayğıkeş, zəhmətsevər bir qadın, ana olmuşdu. Mənə deyərdi, Arzu, qızım, səbrli ol, hər şey yaxşı olacaq. Mehmanla birgə mən də onla bərabər addımladım. Hər yeni günüm gözəl, xoş

idi. Onla olan illərdə daim səbrli, təmkinli oldum, çünki içimdə Mehman vardı..





2018-ci il noyabrın 19-da ailəmizdə, həyatımızda bayram, sevinc oldu. 8 ilin həsrəti sonlandı və nur üzlü qızımız dünyaya gəldi. Elə körpə qızımızın ***Nuray*** adını da Mehman verdi. Körpə qızımız dünyamızı rənglədi, o rənglər ki, bir ömür boyu bizimlə olmağını dilədik... Nuray gəlişiylə evimizi, dünyamızı işiqlandırdı. O işığın əbədi olduğunu, heç sönməməyini arzulamışdım....

Həyatımızın ən xoşbəxt anlarını, günlərini yaşayırdıq. Mehman ailəyə çox bağlı idi. Amma işini daha çox düşünərdi. Mehmandan nə qədər danışsam, bizim həyatımızdan bir kitaba sığdırmaq olmaz. Onunla 10 il birlikdə əziyyətli, zəhmətli ailə həyatımız oldu. Elə hər zaman illərə dəyər nümunəvi sevilən cütlük olduq. Çətinli, əzablı, sınaqlı həyat keçirdik. Çox ciddi görünsə də, ancaq ailəsinə qarşı dəyər verən bir insan idi.

Mehmana görə mən də hərb peşəsini sevdim və o yolları sanki mən də addımladım. Onla bərabər mən də işinin məsuliyyətini çəkirdim. Amma nə qədər yorğun olsa da,



evə gələn zaman qayğımı çəkib zarafatlarından heç qalmazdı. Ailəsi ilə vaxt keçirməyi çox sevirdi. Evdə olan zaman əsgərlərini öz balası tək düşünərdi. Mehman həm də çox savadlı, peşəkar zabit idi. O, işinin mükəmməlliyiçün bir çox xarici ölkəkərdə oldu. Mehmanın Vətən sevgisinin qarşısına heç nə, heç kim keçə bilməzdi.

Bir gün ondan xəbər ala bilməyəndə hər kəsi ayağa qaldırardım. İşinin çətin, məsuliyyətli olmağı hər zaman ürəyimə bir qorxu salardı. Aprel döyüşlərində o qədər qorxmuşdum ki,.... Mehmanı sanki itirmək qorxusu varmış kimi...

Zəng etdim, danışdıq, dedi - təlimdəyəm, nərahat olma, hər şey yaxşıdı. İşindən heç zaman danışmazdı. Danışa bilməyən zaman yazardı, mənim də nigaranlığım, həyacanım keçərdi. Həftə sonları evdə olan zaman həsrətlə üzünə baxardım.

Mehman sonuncu dəfə evə gəldiyində üzü, siması başqaydı, sanki nur işığı saçırdı. Bu gəlişi evə bir neçə günlük sən demə vidalaşmaq, son görüşü, son səsi idi...

Zamanla, sınaqlarla səbr, gözəl xəyallarla həyat imtihanı, yağmurunu gözləyən küləklər, həsrətdən çatlayan dodaqlar və qədərə təslim olmuş taleyim...

O, evə gələn zaman əllərini qoxlayardım və deyərdim ki, Mehman, əllərindən əziyyətli hərbiçi qoxusu gəlir. Heç zarafatlarından dayanmazdı, könlümü xoş etməkçün. Mehmanla demək olar ki, mən də zabitlik həyatı yaşadım. Zəhmətli, keşməkeşli, çətin və şərəfli bir yol. Amma nə qədər əzablı olsa da, Mehmanla hər çətinliyə dözərdim. Gələn zaman evə həyatım sevinərdi. Onla hər çətin yola hazır olan qadın olmuşam. O yol ki, bizi bir birmizə daha yaxın, doğma etdi. Heç zaman ayrılmayacağımıza söz vermişdik...

Nurayın dünyaya gəlişi həyatımızı işıqlandırdı. Ata olmaq sevincini Mehman doya-doya yaşaya bilmədi. Onun tək gördüyü Nurayın bir yaşını, doğum gününü







etmişdik. Mehman istəyirdi ki, Nuray qızımızı istədiyimiz kimi böyüdək. Nurayın ilk dediyi söz ata oldu. Mehman da buna çox sevindi. Onunla birgə arzu-diləklərimiz çox idi. Hər şeyimiz, yanan çırağımız, evimizin hüzuru Mehmanla getdi. Yoxluğu çox çətindi mənə bir qadın, ana kimi.



Mehman həqiqətən bir peşəkar, işini sevən zabit oldu. 23 illik hərb peşəsində adını tarixə yazdırdı. Onunla elə ilk görən zaman fəxr etmişdim, bir insan olaraq, bir həyatımın yarı olaraq. Bu gün də onunla fəxr edirəm. Başı dik olaraq, körpə balamızı Mehmanın adına uyğun böyütməyimə, ruhu qarşısında söz vermişəm. Mehmanın hər sözlərini hər an xatırlayıram. Bir sözünü unutmuram: əzablı, əziyyətli günlərimizdə əllərimi tutaraq deyərdi: **"Arzu, sən güclüsən bilirsən! hər şeyi öz gücümüzlə birgə gələcəyik".** İndi o, yoxdu yanımda. Sözlərini, səsini, gəlişini, zarafatlarını, həsrətini çəkirəm. O həsrət ki,...o yoxluq ki,... bir daha mənə Mehmanı geri qaytarmayacaq...

Heç zaman ağlatmaram, tək qoymaram demişdi, məni bir ömürlük göz yaşlarına, acılara, bir ömürlük yoxluğuna məhkum etdi. Kaş ki, zamanı, illəri geri almaq mümkün olsa, saatları geri çevirmək olsa, Mehmanlı günlərim geri dönsə...

Üzümü, ruhumu kölgələyən, qəlbim yoxluğuyla sağalmaz yaralara büründü.

Düşünəndə ki, Mehman bir daha gəlməyəcək:

Sən gedən, bilirsən neçə il oldu?
Biləsən, hər günüm sənsiz il oldu.
Məni rahat qoymur xəyalın bir an.
Getdin, neçə çıxım bu burulğandan?...

Demək olar ki, hər şeyim, gücüm-qüvvətim Mehmanla getdi. Sevgisindən, qayğısından daim güc alardım. Hər gecələrimi, iki ildə hər günü ağlayıb yalvarıram Tanrıma ki,!, ...onu bir daha görmə şansım olardı. Bəlkə o zaman ürəyimin yanğısı, acısı sönərdi. Bəli mən bir daha yenidən həyata gəlsəydim yenidən Mehmanla həyatımı seçərdim. Onla birgə əzablı, əziyyətli yola birgə çıxardım. Mehman hər şeyin yaxşısını seçərdi, ölümün də ən uca zirvəsini seçdi. Onun qəhrəmanlığı, igidliyi, mərdliyi ilə fəxr edirəm. Vətənpərliyi, cəsarətilə Mehman tarix yazdı. O tarix ki, heç

bir zaman unudulmayacaq. İndi Mehmandan yadigar qalan hərbi geyimləri, əl çantaları, digər əşyaları var ki, baxıb deyirəm kaş ki... kaş ki, vaxtsız tərk etməzdin bizi... bu günkü gündə məni dözümlü edən, gözlərimin ağı-qarası olan qızım Nuraydı. Qızım atasıyla hər zaman fəxr edəcək. Balacadı, bu gün anlamır heç bir şeyi. Günlər gələcək, böyüyüb kitabı oxuyacaq və qəhrəman atasıyla fəxr edəcək. Məktəbi bitirib ali məktəbə gedən zaman ruhu qarşısında dayananıb deyəcək ki, ata mən gəldim, sənin arzularını həyata keçirib adını uca edib, yaşadıram və Nuray fəxrlə deyəcək ki, pollovnik-leytenant Mehman Şirvanovun qızıyam. Bir hərbçi şəhid yoldaşı olmaq mənim üçün olduqca qürurvericidir. Mehman daim mənimlə ürəyimdə xəyallarımda yaşayacaq!...



Şəhid Mehman Şirvanovun əmoğlusu İntiqam Şirvanov

Ailəyə doğma olan əmioğlu İntiqam Şirvanov Mehmanla olan xatirələrini bölüşdü:

Mehman haqqında xatirələrim çoxdur. Əmioğlu yox, mənə qardaş olmuşdu. Demək olar ki, uşaqlığım, ən gözəl günlərim Mehmanla keçib. O, yaşça böyük olduğuna görə bizlərdən daim özümüzə örnək bilirdik. Mehman çox sadə, səmimi, qayğıkeş bir insan olub. Elə kiçik yaşlarından hər zaman çılğınlığı, mərdliyilə seçilirdi. Mənim uşaqlığım elə Mehmanla keçib, birgə oynardıq, gülərdik. O, məktəb illərindən sevdiyi, seçdiyi hərb peşəsi oldu. Elə məktəbi bitirib şərəfli hərb peşəsinə yiyələndi. Mənim də hərbiçi olmaq arzum idi. Lakin o, mənə qismət olmadı. Başqa sənədlə bir müddət məşğul oldum.



Bir gün Mehmanla Bakıda görüşüb söhbət edib, dərdləşdik. İşlədiyim yerdən ayrıldığımı bilən zaman dəyərli məsləhətləriylə yenidən işimə qayıtmışdım. Hər dəfə tətillərdə kəndə gələn zaman çox sevinərdik. Sanki hər kəsin üzü gülərdi. Birgə gedib saçlarını kəsdirərdi. Qohumlara, doğmalara daim diqqət edər, qayğısına qalardı. Mehmanla hər görüşüb danışanda necə yaşamağı, güclü olmağı öyrənirdim. Onun haqqında nə qədər danışsam günlərcə yetməz. O, təkcə əmioğlu yox, qardaş, yol yoldaşı idi. Mehmanın hərbiçi olmağıyla fəxr edirdim.

Öz zəhmətilə oxudu, şərəfli bir zabit oldu. Hər gələndə kəndə görüşüb dərdləşərdik. Heç zaman işindən, çətinliyindən danışmazdı. Amma necə şərəfli peşəkar bir zabit olmağından hər zaman eşidib qurürlanırdıq. Mehmanın ağlında bir tək Vətən istəyi vardı ki, gözlədiyi an gəlsin atılsın döyüşə. O, 2016-ci ildə Aprel döyüşlərində böyük igidlik, qəhrəmanlıq göstərmişdi. Onun cəsurluğundan bu gün də iş kollektivi, hər kəs danışır. Nəhayət, gözlədiyi gün çatdı, 27 sentyabr İkinci Qarabağ Vətən müharibəsi. O, öz taboruyla döyüş meydanına atılaraq qəhrəmanlıq səlnaməsini yazdı və ən uca şəhidlik zirvəsinə ucaldı. Mehman ən böyük şəhidlik zirvəsini seçdi. Sadəcə Mehmandan qalan xoş, unudulmaz xatirələr şəkillərdə qaldı.

Öz balasıtək canı yanan yoxluğuna barışmyan ata Qaynata Etibar Hüseynov Mehmanla olan xatirələri bizimlə bölüşdü:



Şəhid Mehman Şirvanovun qaynatası Etibar Hüseynov

Mehman haqqında danışmaq həm çətin, həm də qürurludu. O, misli bilinməyən, xoş xasiyyətli, ağıllı bir insan, oğul olub. Bir insanda nə qədər müsbət cəhətlər vardısa onunda hər biri Mehmanda vardı. Onu hər zaman öz övladım, qardaşım, doğmam bilmişəm. Mehman mərd, cəsur igidliyi, qəhrəmanlığı ilə fərqlənirdi.. Heç nədən qorxmayan, çəkinməyən oğul idi. Mehman Suqovuşan əməliyyatında öz taboru ilə əziyyəti böyük olmuşdu. Hərbi yoldaşları bu gün də unutmadan danışırlar. Döyüş taktikasını və müasir texnikanı bir peşəkar zabit kimi yaxşı mənimsəmişdi. Mehmanın bir sözü vardı hər gələndə onu deyərdi "Qarabağ işğaldan azad ediləcək, işğalçılar torpaqlarımızdan qovulacaqlar. Ancaq zamanı var, biz ordumuzu daha da gücləndirməliyik".

Çünki o, işinə, peşəsinə çox bağlı oğul idi. Mehmanın qətiyyətli iradəsi onu ən böyük zirvəyə ucaltdı. O, ömrünün 23 ilini şərəfli hərb yolunda keçirdi. Hər gəlişində daim üzümüz gülərdi, sevinərdik. Onu ilk gündən öz balam, oğlum sandım, elə də oldu. Mehman haqqında günlərlə danışsaq yenə də azdı. Onun yoxluğuyla barışmaq hər bi-



rimizçün çox ağırdı. Mən ata qaynata olaraq ürəyimdə ağlayıram. Onu kimi oğulu itirdiyimizçün. O, əsl insan yaxşılığı bacaran, hər kəsə kömək edən zəhmətsevər övlad oldu. Hər birimizin qayğısını çəkən, diqqət edən, evə gələn zaman hər gəlişi ilə xoşbəxtlik gətirərdi.

İndi yanan evimizin işiqi, üzümüzün nəşəsi, qaranlığa, göz yaşlarına qərq olub. O, ömrünün ən cavan yaşında yaxınlarını, doğmalarını tərk etdi. Mehman hər zaman bizimlədi. O, elə bir iz və elə şərəfli yüksəkliyə ucaldı ki, unudulmayan tarixdə qaldı. Onu hər zaman, hər an hiss edirik yanımızda. Mehmanla hər zaman fəxr etmişik. Bu gün də qürur duyuruq. *Mehman Şirvanov ən uca şəhidlik zirvəsini qət etdi.*



Şəhid Mehman Şirvanovun qaynanası Xatirə xanım

Yoxluğuna barışa bilməyən ana qaynana Xatirə xanım çox çətin olsa da, Mehmanlı günlərini bizlə xatırladı:

Xatirə xanım o qədər göz yaşlarına boğulmuşdu ki, öz balasından seçməyən Mehmandan hardan başlayacağını bilmədi.

Mehman elə bir insan, elə bir oğul övlad idi ki, nə qədər danışsam saatlar, günlər yetməz. On il olardı ki, ailəmizin oğlu kürəkəni idi. Bu illər ərzində bir dəfə də olsa bir incikliyimiz olmadı. Hər birimizə o qədər nəvaziş, qayğıkeş göstərən, diqqətcil oğul idi. Vəzifəli şəxs olsa da, çox sadə, səmimi, insanlığı böyük idi. Elə hər dəfə evə gələn zaman heç kimi nərahat etməzdi. Yeriyən zaman astaca ayaqlarını yerə basardı ki, heç kim yerindən qalxmasın. Mehmanın bizi vaxtsız tərk etməsinə dözə bilmirəm bir ana kimi.

Anaya, ailəyə bağlı övlad idi. Onu öz balam sandım, elə ilk kürəkən olandan ailəmizə. Daim onun tərəfində idik. Demək bir gün imtahan vermək üçün gəlmişdi. İmtahanı da hərbidə sürünməkdən keçmək idi. Çox sevincək halda yüksək balla gəlmişdi, üst-başı toz-duman içində. Çox əziyyətli, zəhmətli insan idi. İşini, şərəfli peşəsini çox sevirdi. Sanki işiylə nəfəs alırdı. Gec gəlsə də evə, daim əsgərlərini düşünərdi. Evdə heç rahat yata da blməzdi. Öz savadı, zəhmətilə o zirvələrə ucaldı. Mehman çox utancaq, abırlı idi. O, heç zaman böyüklərin yanında öz övladını qucağına almazdı. Daim böyükləri başda əyləşdirər, özü də ayaq hissədə əyləşərdi. Böyük-kiçiyə hörmətlə yanaşan, qayğımızı çəkən oğul idi. O, şəhid olan gündən mən evdən heç bir yana üz tutmadım. Mehmanın yoxluğyla barışa bilmirəm. O, öz peşəsini canından çox istədi. Vətəni yolunda canından keçərək ən uca şəhadət, şəhidlik zirvəsinə ucaldı. Mehmanla hər zaman fəxr etmişik. Nə yaxşı ki, polkovnik-leytenant Mehman Şirinov kimi kürəkənim, oğlum olub. O, daim bizimlədi.



Xalqımızın igid, qəhrəman oğlu Mehman Şirvanov ən uca şəhidlik şəhadətinə yüksəldi. Onun xatirələrini bu gün də qəlblərində yaşadan və şərəflə xatırlayan kursant yoldaşları, silahdaşları öz xatirələrini bizimlə bölüşdü:

Abbas Haqverdiyev döyüş və silahdaşı olan, dostu şəhid Mehman Şirvanovun qəhrəmanlığından ağızdolusu danışdı:



Şəhid Mehman Şirvanovun dostu Abbas Haqverdiyev

Mənim Mehmanla ilk tanışlığımız 2008-ci ildə eyni hərbi hissədə xidmətdə olduğumuz zamanda başladı. Onu ilk görəndən necə səmimi, gülərüz, dostluqda, yoldaşlıqda sadiq biri olduğunu sezmişdim. Günbəgün dostluğumuz daha möhkəm, sıx oldu. O, çox savadlı, öz üzərində çalışan, elmə marağı olan insan idi. Arzularından ən ilki hərbi texnikanı mükəmməl mənimsəmək, peşəkar zabit olmaq. Onun uğurlarına hər zaman sevinirdim. Bizim dostluğumuz hətta ailələrimiz belə bir-birlərinə yaxın oldu və vaxt edib görüşüb, dərdləşərdik. Təlimlərdə və tədbirlərimiz demək olardı ki, bir yerdə görüşərdik. Bir müddət keçəndən sonra xidmətini Naxçıvan N saylı hərbi hissəyə təyinat aldı. Bu uzaqlaşma bizi daha isti qardaş kimi bağlılığımızı yaratdı. O, heç vaxt işinin çətinliyindən, əziyyətindən danışmazdı. Onun ömür yolu əziyyətli və şərəfli oldu. Mehman Şirvanov həqiqətən mərd, cəsur, qorxmaz, vətənpərvər oğul idi. Danışdıqca həm kədərlənirəm, həm də elə bir igid dostum olduğuçün qürur duyuram. Hər peşəsi məsuliyyətli, fədakarlıq tələb edirdi

onların da hər biri Mehmanda formalaşmışdı. Onun yüksək polkovnik-leytenant ad almasına çox sevinmişdim. Bir zabit kimi Vətən sevgisini əsgərlərinə hərbi bilikləri öyrədən, şəxsi heyətə nümunəvi komandir oldu. Ürəyində hər zaman bir sıxıntısı vardı - Vətən torpaqlarımızın işğalda olması. Onu çılğınlığı, dəlisovluğu ən uca zirvəni qət etmək idi. 20 ildən artıq Vətənə şərəfli borcunu yerinə yetirən polkovnik-leytenant bir qığılcım lazım idi ki, atılsın döyüşə. Arzuladığı gün gəlib çatdı. 27 sentyabr 2020 ci il. Elə son dəfə danışanda zarafatyana dedim, vəzifəyə təyinat alırsan? Cavabında isə mənə dedi ki: **"Biz vəzifəyə görə xidmət etmirik!".** Danışandan bir neçə saat sonra bir çox şəkilllərin telefonuma yönləndirdi. Baxdım nə demək istədiyini anlamadım niyə belə edir deyə. Şəkillər ayrılıqdır deyiblər. Sanki bilirmiş ki, ən uca şəhadətə ucalacaq və doğmalarından, dostlarından bir ömürlük ayrılacağını. Elə son danışmağımız o gün oldu. Şiddətli gedən döyüşlərdə öz taboru ilə qalxaraq öndə olaraq şəhidlik zirvəsinə ucaldı. Bu xəbər məni və iş kollektivini çox sarsıtdı. Müharibədə döyüşün ən çətin strateji olan Murov dağının azad olunması uğrunda öz taboru ilə irəliyə addımlayaraq canı bahasına azad etdi. Bu gün də həmin yüksəkliklərin bir çoxunun alınmasında polkovnik-leytenant Mehman Şirvanov adı ilə bağlıdır. Hər bir dostları, yoldaşları şəhid Mehman Şirvanovun qəhrəmanlığıyla fəxr edirik.

Bəli vətənpərvərlik tərbiyəsində, ruhunda addımlayan Mehman 2009-cu ildə kapitan hərbi rütbəsini alır. Elə 2011-ci ilin may ayında göndərişlə Naxçıvan Muxtar Respublikasının Şahbuz rayonunda yerləşən N saylı hərbi hissəyə taborun təminat üzrə müavini vəzifəsinə göndərilmişdi. O, işlədiyi yerlərdə öz səmimiyyətilə, sadəliyilə seçildi. Böyük həvəslə yiyələndiyi hərb peşəsini daim adını uca etdi. Bir zabit həyatının əziyyətini, məsuliyyətini həyatının sonunadək öz şərəfinə and içmişdi. O, 2013 cü ildə Culfa ra-

yonunda yerləşən N saylı hərbi hissəyə göndərilmişdi. Vətəninə, elinə, obasına bağlı olan Mehman Şirvanov 2014-cü ildə mayor hərbi rütbəsinə layiq görüldü. O yüksəliklər onu ucalığa aparırdı.

Gənc mayor ömrünün ən gözəl çağında həyatına rəng çalan xoşbəxt etməkcün yarını yol yoldaşını seçmək idi. Nə qədər çətin olsa da peşəsi gənc zabit Mehmanın özünün sevib seçdiyi xanımıyla həyatını bütöv etmək istədi. Elə bir xanım ürəyində arzuladı ki, onun daim yanında olan zəhmətinə dəyər verən bir xanım. Arzularının arzusu elə Arzu xanım oldu. O, elə bir xanım, bir ana ki, ağrıları ilə həyatın çətinliyilə başbaşa qalaraq, bu gün də başı dik çiyinlərində yük daşıyan Arzu xanımdı. Arzu varkən doğularkən doğulur, arzu var qəlbə donan buz kimidir. Arzu da var közərən köz kimidir.



Abbas Haqverdiyev dostu şəhid Mehman Şirvanovla



Şəhid Mehman Şirvanovun dostu Elşən Qapaqov

Elşən Qapaqov bir hərbi hissənin komandiri olaraq dostu, silah yoldaşı olan şəhid Polkovnik-leytenant Mehman Şirvanovun vətənə bağlılığından söz açdı:

Mehman Şirvanovla xatirələrimiz çox olub. İlk əvvəllər elə mənim tabeçiliyimdə xidməti olmuşdu. Onu tanıyan zamandan çox qoçaq mərd oğlan idi. Dəlisov, cıılğınlığı ilə hər zaman seçilmişdi. O, öz savadı, qabiliyyəti ilə fərqlənirdi. Təlimlərdə yüksək səviyyədə iştirak edərdi. O, şərəflə seçdiyi hərb peşəsinə məsuliyyətlə yanaşdı. Bir vətəninə bağlı oğul kimi. Bir müddətdən sonra öz taborunun şərəfli zabiti oldu. Mehman Şirvanov tabeçiliyində olan şəxsi heyətinə daim diqqət edən, qayğısına qalıb və məsulliyyətlə yanaşdı. Təlimləri zamanı çox peşəkarcasına yerinə yetirərdi. Mehman Şirvanov keçdiyi əziyyətli, əzablı hərb yolunda sayılıb- seçilən zabitlərdən oldu. Onun ürəyi daim Vətən eşqiylə döyünən igidlərdən oldu. Tək istəyi torpaqlarımızın erməni vəhşilərindən azad olunması idi.

Elə hər birimizin həsrətlə gözlədiyi gün gəldi. 27 sentyabr səhər saatlarında ağır artilleriya hücumları başladı. Mehman Şirvanovun bölüyü dağlıq ərazisində və üç istiqamətdə Murovdağın sol cinahında, Gülüstan məntəqəsinin sağında və sol istiqamətində. Bir bölüyün sağ tərəfi hücuma keçən zaman zirehli texnikaların arxasınca hərəkət edirdi. Mehman Şirvanov mərd, qorxmaz idi. Dost, yoldaş yolunda canını fəda etməyə hazır olan biri idi. Şiddətli gedən döyüşdə zirehli gedən texnika vurulmuşdu. O, öndə gedən zabitlərdən oldu ona görə də əsgərini xilas etmək üçün yerini tərk edərək odun alovun üstünə atılmışdı.



O, prosesi etmək üçündə güc, cəsarət lazım idi. Texnikanın içində silah-sursatlar partlayan zamanı texnika arxaya hərəkət edirdi. Polkovnik-leytenant öz qəhrəmanlığı, mərdliyi ilə adını tarixə yazdırdı. Xüsusilə qeyd edim ki, Mehman Şirvanov korpusun taborunda 44 günlük müharibənin ilk dəqiqələrində ən uca şəhidlik zirvəsinə ucalan yüksək rütbəli zabitlərimizdən oldu. Onun taboru komandirlərinin qoyduğu qayda ilə sonadək qəhrəmancasına vuruşub qisaslarını aldılar. Şəhid Polkovnik-leytenant Mehman Şirvanov döyüş yoldaşlarının qəlbində daim yaşayacaq.







Şəhid Mehman Şirvanovun dostu İlkin Mövsümlü

İlkin Mövsümlü öz silahdaşı, dostu şəhid Mehman Şirvanovla olan xatirələrini bizimlə bölüşdü:

Mən Mehman Şirvanovu 2003- cü ildən tanıyıram. O zaman mən tabor komandiri idim. Mehman o illərdə də gənc zabit kimi xidmətə başlamışdı. Kursant illəri çox zəhmətsevər, ağıllı öz bilik və bacarıqlarını artırmaqçün çalışqan zabit idi. Həmin zamanlarda Mehman Şirvanovla bir neçə zabit mənim taborumda xidmətə başlamışdı. Onun qətiyyətli sözləri, məğrur baxışları və hərb peşəsinin incəliklərinə yaxşı bələd olması bir zabit kimi peşəkarlığı hiss olunurdu. O, Ümummilli liderin Heydər Əliyevin sözlərini: Zabit olmaq, hərbi vəzifə daşımaq gənclərimizin ən müqəddəs vəzifələrindən biri olmaqdır. O, seçdiyi şərəfli peşəsilə vətənini sevərək addımlayırdı. Vətənini, el-obasını sevən oğul idi. Bü gün də unutmadığım o illərin xatirəsi var: mənim bir xususiyyətim vardı ki, gələn yeni zabitləri yoxlanış edirdim. Onların savadını, biliyini, iradəsini dözümünü bilməkçün. Bir dəfə zabitləri sorğu-suala çəkdim, elə onların sırasından Mehman Şirvanov israrla hirsli cavab verdi. Sonra sakitlik olan zaman yaxınlaşdı mənə dedi ki: “bağışlayın, mən sırada sizə hirsli cavablar verdim”.

Ona cavabım oldu ki, bizə elə sənin kimi cəsur ürəkli qəhrəman zabitlər lazımdır. Çox çılğın, dəlisov idi. Yeni gələn zabitlərə düzgün yol göstərmək peşəkar döyüşçü kimi yetişdirmək bizim vəzifə borcumuzdu. Beləliklə, bir müddətdən sonra Mehman Şirvanov öz şərəfli peşələrinə şəxsi heyətin tağımına təqdim olunub başladı xidmətinə. O, hərbi hissənin nümunəvi və bacarıqlı zabitlərindən oldu və



onun xidmətdə qazandığı uğurları həm doğma kollevtivdə həm də ailəsinə baş ucalığı gətirdi. Həqiqətən insan kimi insan, dostluq yoldaşlıqda sadiq idi. Gülərüz səmimi xeyirxah, mərdliyi ilə yoldaşlarından fərqlənirdi. Bir dəfə də təlim tapşırıqları vermişdim, bir də kitab verdim ki oxusun. O, çox böyük həvəslə kitabı oxumuşdu. Çalışırdı ki, hər şey mükəmməl olsun. Mənə də çox xoş olurdu ki, xalqımızın Mehman Şirvanov kimi cəsur igid, savadlı zabitləri var. Bizim birlikdə xidmət illərimiz 2005-ci ilədək oldu. Mən xidməti işimlə əlaqəli olaraq başqa hissəyə keçirildim. Amma uzaq olsaq da tez-tez əlaqə saxlayardıq. Xeyli vaxt zaman keçmişdi. Inanırdım ki, artıq Mehman harda olursa-olsun, əsl peşəkar zabit olacaq. 2017-ci ildə biz yenidən Yevlax N saylı hərbi hissədə görüşdük bir azda zarafatlar etdik. Xidməti vaxtlarında eşitdim ki, artıq polkovnik-leytenant vəzifəsinə yüksəlib. Çox sevindim uğurlarına, həqiqətən də laiq idi. O, artıq Goranboyda N saylı hərbi hissədə tağım komandiri kimi xidmətinə başlamışdı. Daim xoş sözlərimi arzularımı danışarkən demişdim. Yenə də bir böyük olaraq məsləhətlərimi unutmadım deməkdə. Zəhməsevər imanlı sadə idi polkovnik-leytenant Mehman Şirvanov. O, çılğınlı dəlisovluğu və bitməyən gücüylə torpaqlarımızın işğalda olmasına görə çox nərahat idi.

Artıq 2020-ci ilin sentyabr ayında II Qarabaq Vətən müharibəsi başladı. Bizim qoşunlar artıq əks hücüma keçmişdi. Elə müharibənin ilk günündə çox ağır sarsıdıcı xəbərini aldıq. İgid qəhrəmanımız olan polkovnik-leytenant ən uca zirvəyə şəhadətinə ucaldı. Heç kim inana bilmirdi ki, elə bir dəlisov, çılğın müharibənin ilk günündə şəhid olsun. Öz şəxsi heyətini taboru qoruyaraq ön xətti yararaq və düşmənin ön xəttinə keçərək hücuma atılaraq qəhrəmanlıq göstərmişdi. Çünki onun elə cəsurluğu iradəsi

tək ancaq şəhidliyə ucalda bilərdi. Polkovnik-leytenant Mehman Şirvanov xidmətlərini bu gün də unutmayaraq xatırlanır. Onun qəhrəmanlığı bu gün də və gələcək nəsillərə örnək oldu. Mehman Şirvanovla olan xoş unudulmaz xatirələrimi onun qəhəramanlığını ruhu qarşısında danışdım. Polkovnik-leytenant Mehman Şirvanov əbədiyyətə qovuşan unudulmayan tarixdə qalan qəhrəman oldu.



Şəhid Mehman Şirvanovun dostu Elvin Həbibov

Elvin Həbibov yaxın dostu olan Şəhid Mehman Şirvanovla xoş xatirələrini bölüşdü:

Biz Mehamanla ilk tanışlığımız 2013-cü ildə Naxçıvan Muxtar Respublikasının Şahbuz rayonunda yerləşən "N" saylı hərbi hissədə tanış olmuşduq. Mehman o illərdə tabor komandirinin maddi-texniki təminat üzrə müavini vəzifəsində xidmət edirdi. O işlədiyi vaxtlarda kollektivdə nizam intizamı ilə öz bacarıqlarıyla daim fərqlənirdi. Xidmət etdiyi tabor dağlıq ərazidə, çətin və mürəkkəb bir relyefdə yerləşirdi. Amma bunlara baxmayaraq Mehman taborun şəxsi heyətinin bütün təminat məsələlərini öz üzərinə alaraq peşəkarcasına yerinə yetirərdi. O, şəxsi heyətinə qarşı hər zaman diqqətli olmaqla yanaşı, əsgərlərinin fərdi şəkildə qayğısına qalardı onlarla dostcasına söhbətlər edərdi. Mehman səmimi hər bir dostuna yoldaşına canı yanan insan idi. Bir zabit kimi işinə məsuliyyətlə yanaşan tabeliyində olanlara qarşı tələbkar idi. O vətənini, dövlətini öz şərəfli hərb işinə çox



bağlı bir insan idi. Biz sonradan Culfa rayonunda yerləşən N saylı hərbi hissəyə təyinat aldıq və birlikdə xidmətimizə davam etdik. Onun dostluqda nə qədər sadaqətli, etibarlı bir insan olduğunu günlərlə danışsam yenə də azdır. Çünki Mehman çox sadiq bir dost oldu. O, həm də gözəl ailə başçısı, doğmalarına, valideynlərinə bağlı düşünən insan idi. Onun ən böyük arzularından biri də torpaqlarımızın düşmən tapdağından azad olunması torpaq el-oba yolunda döyüşməsi idi. Mehman 2016-ci ildə Müdafiə Nazirliyinin müvafiq əmrinə əsasən Yevlax rayonunda yerləşən N saylı hərbi hissəyə Taborun Qərargah rəisi vəzifəsinə təyinat aldı. Başlanan Aprel döyüşlərində də cəsarətlə döyüşdü. Onun istəyi tam reallaşmamışdı. Danışan zaman dedi ki: hələ qisasımızı almamışıq, biz torpaqlarımızı tam olaraq düşməndən azad etməliyik. Mehmanın istəyilə komandanlıq onu Murovdağ silsiləsində mövqe tutmuş tabora komandir təyin olundu. Orda bir müddət xidmət etdikdən sonra nəhayət ki, onun arzuladığı an gəlib çatdı. 2020-ci il Ali Baş Komandan İlham Əliyev əks-hücum əmrini verdikdən sonra qorxu bilməz zabit və əsgərlərimiz haqq savaşına qatıldılar. Mehman Şirvanov başlanan Vətən müharibəsində öz taboru ilə haqq savaşına qalxdı. O savaş ki, illərcə həsrətinin çəkdiyi topaq savaşı. Bəli, polkovnik-leytenant Mehman Şirvanov canından, qanından keçərək, qəhrəmancasına ən uca şəhadətə ucaldı. Onun şəhidlik xəbərini eşidən an çox təsirləndim, sanki öz doğma qardaşımı itirdim. Şəhidlik, həqiqətən də qeyrət və hünər zirvəsidir. Böyük əzm və ruh yüksəkliyi ilə başladığımız müharibədə tarixi zəfərlə sonlandı, qələbə qazanıldı, ədalət bərpa olundu. **Polkovnik-leytenant Mehman Şirvanov ölməzliyi ilə gələcək nəsillərin əbədi ziyarətgahına çevrildi.**



Şəhid Mehman Şirvanovun əsgəri Nurlan Tağızadə

Əsl dostluq ayrılmaz, əbədi olur deyiblər. Bəli Mehman Şirvanovun sadiq əsgərlərindən olan Nurlan Tağızadədir. O, komandirini çox çətin, ağır olsa da xatirələrini bizimlə bölüşdü:

Çox ürək ağrısı olsa da komandirim olan polkovnik-leytenant Mehman Şirvanov haqqında xatirələrim çoxdu. Elə komandirə canım qurban, kaş ki, sağ olaydı. Yenə mənə dəyərli hikmətli məsləhətlərini verərdi. Hərbidə olan çox xatirələrim var. Oktyabrın 26-da 2019-cu il hərbi xidmətdə vətənimi göz bəbəyi kimi qorumağa arzumla, istəyimlə getmişdim. Elə ilk gündən Goronboyun Yuxarı Ağca Kənd Ballı Qayada yerləşən N saylı hərbi hissəyə göndərilmişdim. Briqadada ağır artilleriya bölməsində olmasına baxmayaraq çox həvəslə xidmətimi edirdim. 6 ay tamam olarkən məni 3 tabora təyin olma əmri verildim və getdim. Elə ilk günü idi ki, taborun həyətində bir polkovnik-leytenantın durmasını gördüm. Bir hərbi qulluqçudan soruşdum ki, sadə görünüşlü zabit kimdi. Cavabında isə o, taborun ağsaqqalı, hər birimizin döyünən ürəyidi. Sözləri eşidib çox sevindim və can atırdım ki, komandirlə görüşüm. Onun yanına qaçaraq getdim və uca səslə məruzə edəndə polkovnik-leytenant Mehman Şirvanov gülümsəyərək dedi: otağımda otur, mən də gəlirəm. Elə gələn zaman mənimlə iki-üc saat söhbət etdi. Çox imanlı, dinli bir insan idi. Elə mənə də ilk gündən dindən, imam Hüseyn haqqında onun necə döyüşlərdə olduğundan, həyatından, çətinliyindən danışdı. Elə söhbət edən zaman telefonunda azan səsi oxundu. Qalxıb çıxmaq istəyəndə mənə dedi dur! Namaz qılana baxmaq xoş deyilmi, əsgər. Komandirimin sözünü



dinləyib namaz qılmağını seyr etdim. Onun nə qədər dürüst, saf, mərd biri olduğu üzünə yazılmışdı. Namazı bitirərkən biz yenidən söhbətimizə davam etdik. O, məndən ailəm haqqında suallar verdi. Söhbət əsnasında ailə başçım atam həyatda yoxdu, çox üzüldü. Başımı aşağıya dikərkən mənə cavabı o oldu ki, hər bir zaman başını dik tut, sən bir qəhrəman, cəsur oğlansan. Sanki onun sözləri mənə məlhəm olmuşdu. Xidməti vaxtlarımda komandirlərim çox olmuşdu, amma Mehman Şirvanov kimi əsl insan görməmişdim. O, həqiqətən əsl yoldaş dost idi. Əsgərlərinin hər birinin fərdi şəkildə qayğısına qalar, problemlərini həll etməyə çalışardı. O, elə əsl peşəkar işini sevən komandir idi. İmanlı, dinli, sadə, səmimi, iş kolletivində böyük hörmət qazanmışdı. Cəsurluğu, igidliyi ondan öyrənmişdik.

Demək 8 ayın əsgəri idim. Mən manqa komandiri vəzifəsinə təyin edildim. Rabitə komandiri kimi işimi davam etdirirdim. Komandirimiz hər dəfə əsgərlərlə danışarkən torpaqlarımızın işğaldan azad olunmasından və qələbə bizimlə olacaq deyərdi. Elə can atardı ki, o gün gəlsin, irəli önə atılsın. Vətənini sevən, elinə-obasına bağlı bir insan idi. Nəhəyət ki, hər birimizin gözlədiyi gün gəldi. 27 sentyabr 2020-ci il - İkinci Qarabağ savaşı başladı.

Hava dumanlı və yağış yağırdı. Sanki payız ayrılığın dəmini, havasını gətirmişdi. O ayrılıq ki, bir yuxu olmasını istədik....

Yağışın bir yandan güclənməsi, işimizə, xidmətimizə mane olmurdu., Vətən yolunda canımızdan keçməkçün vuruşurduq. Gözlərini bir an belə qırpmadan əsgər və zabitlərimiz bir amalla vuruşurdular. Komandirimiz məndən uzaq olsa da, öz qəhrəmanlığı ilə seçilirdi. Bir əsgər olaraq Mehman Şirvanovdan çox şeyləri öyrəndim. Gündüz saat 11 radələri idi. Şiddətli döyüş davam edirdi. Düşmən tərəfə ağır artilleriya, həm də mərmilər atılırdı. Elə mən həmin gün qəbulda idim. Komandirim Mehman Şirvanovun son sözünü dinlədim və dedi: Hər şey yaxşı olacaq

biz qalib gələcəyik. Elə bir neçə saat keçmişdi ki, komandirimizin ən uca şəhidlik zirvəsinə ucalmağının xəbərini eşitdik. Elə bir tabor komandirini itirmək mənə çox ağır oldu. Sanki dilim tutuldu o an. Mənə təsəlli olan dost, qardaş olan insanın yoxluğu qəlbimi yandırdı. O insanın bir amalı vardı ki, ilk gündən ən uca zirvəyə ucalmaq. Taborda hər bir əsgərlər acı xəbərdən sonra bir cəsur komandirlərinin qisasını düşmənlə üz-üzə vurşuşaraq qisasımızı aldıq. Polkovnik-leytenant Mehman Şirvanov canını qanını Vətəni uğrunda fəda edərək qəhrəmanlıq səlnaməsini yazdı. Polkovnik-leytenant Mehman Şirvanovun ruhu qarşısında baş əyirik!



Şəhid Mehman Şirvanov dostu Quliyev Paşa

Quliyev Paşa dostu, silahdaşı olan Mehman Şirvanovla olan xatirələrini bölüşdü:

Həyatda elə insanlar var ki, yoxluğuyla barışmaq çox çətin ağır və unudulmaz olur. Elə Mehman Şirvanov da o unudulmaz insanlardan oldu. O, əsl peşəkar və xalqını, Vətənini sevən zabitlərdən oldu. Dostum Mehmanla olan xatirələrim çox olub. Onun haqqında nə qədər danışsam, insanlığından, sadələliyindən və igidliyindən günlərcə bitməz. O, bu gün də dostları yanında xatırlanır və anılır. Mən polkovnik-leytenant Mehman Şirvanovun tabeçiliyində xidmətdə olmuşam. Çox xoşbəxt insanam ki, onunla birgə xidmətdə çiyin yoldaşlıq etmişəm. İşində hər zaman məsuliyyətli, ciddi, əzmli olmuşdu. Xoş xasiyyətli, səmimi, gülərüz və tabeliçiliyində olan şəxsi heyətə qardaş, ata idi. Ürəyində Vətən həsrətini, acısını çox çəkirdi. Hər



zaman təlimlərdə olan zaman öndə olaraq şərəflə yerinə yetirərdi. O, xalqını, millətini sevən, düşünən bir zabit olmuşdu. Hər zaman üçrənli bayrağımız tabor komandirimiz Mehman Şirvanovun ürəyinin üstündə olardı. Bir komandir olaraq daim əsgərlərinə milli dəyərlərimizdən vətəni el-obanı göz bəbəyi kimi qorumağı aşılayardı. Tabor komandiri Mehman Şirvanovun yanğılı sözlərini bu gün də xatırlayıram:

"Əbədi, əzəli torpaqlarımızı düşməndən azad etməliyik. Onlar güclü ordumuzun gücü qarşısında dayana bilməyib geri çəkilməlidirlər". Bəli, biz komandirimizin sözlərini dinləyib inanırdıq ki, biz qalib gələcəyik. Zəngin döyüş təcrübəsilə təlimlərdə qazandığı bilik və bacarıqlarını tabeliçiliyində olan şəxsi heyətə keçərdi. Tək istəyi o idi ki, döyüş əmri gəlsin və hücuma keçsin. Bəli, o gün gəldi. Polkovnik-leytenant döyüş əmrini alarkən çox sevincli idi. Elə o günü yadımdadı sentyabrın 26-sı, təxminən axşama yaxın olardı saat 18:00 radələrində. Mən də o günü tabor növbətçisi idim. Mehman Şirvanovun üzü gülərək mənə səsləndi: "Quliyev, gün bu gündü, hazırlaş gedirik". Dedim hara komandir, -cavabında isə "döyüşə: "İllərdir bu günün həsrətini gözləyirdik, nəhayət ki, çatdıq arzumuza".

27 sentyabrda şəxsi heyətə düşməni məhv etməyi əmrini tapşırdı və biz qalib gələcəyik dedi. Qarşıya qoyulan vəzifəni layiqincə yerinə yetirdi. Mehman Şirvanov üçrəngli bayrağımızı şəxsi heyətə paylayaraq ürəyimizdə saxlamağı tapşırmışdı. Ölümə gülərək önə atılan cəsur zabit oldu və ən uca şəhidlik zirvəsini qət etdi. Polkovnik-leytenant Mehman Şirvanov əsl yoldaş, silahdaş, mərd bir insan kimi qəlbimzdə yaşayır və yaşayacaqdır..



Şəhid Mehman Şirvanovun döyüş yoldaşı Alxanov Həsrət

Alxanov Həsrət döyüş yoldaşı olan Şəhid Polkovnik-leytenant Mehman Şirvanovla xoş xatirələrini bizimlə xatırladı:

Mənimçün də polkovnik-leytenant Mehman Şirvanov haqqında danışmaq həm çətin, həm də bir dost olaraq şərəfdir. O, bizimçün əvəzedilməz bir şəxsiyyət, bir komandir kimi unudulmazdı. Bir qəhrəman döyüşçüdən danışmaq mənə həqiqətən qürurdu.

O, 2016-cı ildə də Aprel döyüşlərindədə böyük igidliklər göstərmişdi. Bir çox hərbi hissələrdə numunəvi, qüsursuz işlərinə görə fərqlənmişdi. İşini çox sevən, peşəkar zabit idi. O, sanki hərb üçün doğulmuşdu. Onu da xüsusi vurğulayım ki, Polkovnik-leytenant Mehman Şirvanov xidməti dövründə bir sıra xarici ölkələrdə, o cümlədən Rumuniyada, Türkiyədə, Gürcüstanda və Nato tərəfindən ixtisasartırma kurslarında iştirak etmişdi. İşinin təcrübəsi, peşəkarlığı ilə çalışırdı ki, tabeliyində olan əsgərlərini bir döyüşçü kimi yetişdirsin.

Ən son Vətən müharibəsi başlamadan bir gün öncə mənə zəng etmişdi. Və son olaraq sözü mənə o oldu ki: "Tabeçiliyimizə verilən tapşırığı layiqincə yerinə yetirməyi və silahlanmağı, qələbə ilə irəliləməyi tapşırıq əmrini verdi.

Polkovnik-leytenant Mehman Şirvanov şəhidlik zirvəsinə gülə-gülə getdi. İstəyi o idi ki, ən uca zirvəyə yüksəlmək. Bizimçün də çox ağır itki, taborumuzun bir igid, cəsur zabitimizi itirmək. O, daim bizimlədi, ruhunu ehtiramla hər zaman yad edirik.



Ehtiyatda olan zabit Xəyal Əliyev döyüş yoldaşı olan şəhid Mehman Şirvanovla olan xatirələri bölüşdü:



Şəhid Mehman Şirvanovun döyüş yoldaşı Xəyal Əliyev

Mən bu gün səngər dostumun ruhu qarşısında birgə keçirdiyimiz xatirələri bölüşürəm. Mehman Şirvanovla ilk görüşümüz lap oxuduğumuz kursant illərindən olmuşdu. Unudulmayan dostumla xatirələrimi bu gün də şərəflə xatırlayıram. O, xüsusi mərdliyi, cəsurluğu ilə fərqlənirdi.

Bir gün taborda yarış zamanı idi. Elə ikimiz də eyni vaxtda yürüş məntəqəsinə çatmalı idik. Yürüş zamanı Mehman geridə qalan yoldaşına silahını, yükünü özü götürüb sonadək kömək etmişdi. Toplanma məntəqəsində olarkən bir türk zabiti kənardan Mehmanın necə dosta sədaqətini, vəfalı olmağını seyr etmişdi. Yarışdan sonra Mehmanı sıradan çıxarıb təşəkkürünü etmişdi. Onu nümunəvi, mərd, qorxmaz bir qəhrəman kimi yoldaşlarına örnək demişdi. Mehman çox zarafatçıl, gülərüz, böyük ürəyə sahib idi. Təlimlərdə böyük həvəslə iştirak edər, verilən tapşırıqları layiqincə yerinə yetirərdi. Ara-sıra boş vaxtlarımızda idmanla məşğul olardıq. Meydançada böyük həvəslə məşqlər edərdi. Elə o vaxtdan sanki özünü hazırlayırdı ən böyük zirvəyə. Vətənini, el-obasını sevən oğul idi. Torpaqlarımızın yağı düşmənlərdə olmağını çox düşünərdi. Birgə dərdləşən, söhbət edən zamanı bir tək sözü vardı: "məktəbi bitirib, döyüşlərə qatılmaq" amalı, istəyi ən uca zirvəyə çatmağı idi.

Bəli, zaman keçdi, hər birimiz tapşırığa əsasən təyinat aldıq. Bir zabit olaraq Mehman Şirvanov döyüş bölgə-

lərində xidmətini davam etdirdi. Öz savadı, bacarığı ilə polkovnik-leytenant vəzifəsinə nail oldu. 23 il qüsursuz xidmət etdi. Vətən müharibəsi başlarkən də öz şücaəti ilə öndə gedərək adını tarixə yazdırdı. Polkovnik-leytenant ən uca şəhidlik zirvəsinə ucaldı. O, daim bizimlədi.

Şair dosta aid şeri belə vəsf etmişdi:

Adını yazmısan xalqın qəlbinə,
Biz səni qürurla anırıq hər an,
Sən elə zirvəyə ucalmısan ki,
Şəhidlik adıyla köçdün dünyadan.



Şəhid Mehman Şirvanovun döyüş yoldaşı Tacir Həsənli

Gizir olan Tacir Həsənli döyüş yoldaşı olan şəhid polkovnik-leytenant Mehman Şirvanovla xoş xatirələrini bölüşdü:

Təcrübə həmişə uğur qazandırır, deyiblər. Mən bir fiziki, mənəvi güclü olan tabor komandiri polkovnik-leytenant Mehman Şirvanovun ruhu qarşısında danışıram. Bir igid zabit haqqında danışmaq çətin, həm də qürurdu. Zabit peşəsi nə qədər çətin olsa da, həm də şərəflidi. Bu peşəni qiymətləndirən mühüm cəhət Vətəni göz bəbəyi kimi qorumaq sənəti olmasındadır. Mehman Şirvanov ömrünü hərb peşəsinə qurban edən zabitlərdən oldu. O, Aprel döyüşlərində də böyük qəhrəmanlıqları ilə seçilmişdi. Çox imanlı, dinli, əsl vətənpərvər bir insan idi. Mehman Şirvanov tabeçiliyində olan şəxsi heyətlə söhbətlər apararkən hər an hər şeyə hazırlı olmağımızı deyərdi. İstəməzdi ki, xidməti vaxtlarda saatında heç bir əsgər işindən yayınsın. Bəli, əsgər hər addımında komandirinə güvənməlidi. O, tabeçiliyində olan şəxsi heyəti formalaşmalaşdırmaq güclü olmasını istəyirdi. Tək istəyi o idi ki, üzərimizə düşən vəzifəni layiqincə



yerinə yetirək, xidməti düzgün təşkil edək vətənimizi göz bəbəyi kimi qoruyaq. Onun bir cəsur zabit gücü və sözü taborumuza güc verirdi. Mehman Şirvanovla son görüşümüz İkinci Qarabağ müharibəsi başlamadan öncə olmuşdu. O, fərdi olaraq hər birimizlə görüşüb halallaşmışdı. Sanki bilirdi ki, son görüşüdü öz taboruyla. Elə sabaha yaxın saat 07:30 radələrində erməni vəhşiləri ağır artilleriyalarla atəş açdılar. Göndərişlə bizim xidmətimiz Gülüstan kəndi istiqamətində oldu. Döyüş istiqamətimiz elə orda idi. Mehman Şirvanov yuxarı hissəyə öz taboru ilə qalxmışdı. Onun səsini elə döyüş başlayan zaman eşitdim. Çox sevinirdi gülərək getdi döyüşə. İnana bilmədim ki, bir neçə saatdan sonra polkovnik-leytenant Mehman Şirvanovun şəhidlik zirvəsinə ucaldığını eşitdim. Heç kim inana bilmədi onun taborda yoxluğuna. Çünki komandir kimi daim əsgərlərinə güc verirdi və deyərdi: "Biz qalib gələcəyik". Bəli, cəsur, igid qəhrəman zabitimizin qanı yerdə qalmadı, biz zəfər qazandıq. Onun ruhu şaddı ki, bu gün torpaqlarımız düşməndən azad edildi. Polkovnik-leytenant Mehman Şirvanov hər bir döyüş yoldaşlarının qəlbində əbədi olaraq qaldı.

Simran Tahirov çiyin döyüş yoldaşı Mehman Şirvanovu çox qürurla, şərəflə xatırladı:

Döyüş yoldaşım, silahdaşım haqqında danışmaq mənə ağır olsa da həm də qürurdu. Polkovnik-leytenant Mehman Şirvanov çox vətənpərvər, millətinə bağlı əsl vətən oğlu idi. O, həmçinin bu hissləri tabeliyində olan şəxsi heyətə böyük bacarıqla aşılayırdı. Onu tanıyan hər kəs bilirdi ki, Mehman Şirvanov işini bilən,



Şəhid Mehman Şirvanovun döyüş yoldaşı Simran Tahirov

bacarıqlı, savadlı, bir kadr idi. Təlimlərdə böyük cəsarətlə iştirak edərdi. O bizimlə daim maraqlanar müdafiə üzrə verdiyi tapşırıqların düzgün yerinə yetirilməyini şəxsən özü yoxlayardı. Hətta birgə bizimlə avtomobilsiz yolları kilometrlərlə qət edərək döyüş mövqelərinə gələr, hər birimizlə maraqlanar döyüş işi üzrə göstərişlərini verərdi. Çox igid, qəhrəman bir zabit idi. Elə 2020-ci il sentyabr ayının 27-si əks-hücum əməliyyatları başlayarkən polkovnik-leytenant Mehman Şirvanov mənimlə rabitə vasitəsilə əlaqəyə çıxaraq Gülüstan kəndinə girməyimi əmr tapşırığını verdi. Onun sözü məndə inamımı, gücümü artırdı. Sadə və bir o qədər də məsuliyyətli yüklü söz idi: **"Vətən oğlu mən sənə inanıram"-** o söz mənə sonunadək güclü olmağı göstərdi. Sanki o söz yolumda mayak oldu. Hazırladığım qrupla Gülüstan kəndinə doğru hərəkət etməyə başladım. Düşmənin güllə atəşləri üstümüzə yağsa da belə irəliyə, daha da qabağa irəliləyirdik. Mehman Şirvanov taboru ilə yuxarı istiqamətə qalxmışdı. Yüngül yaralılarımız olsa da kəndə girməyi bacarmışdıq. Elə kəndin döyüş bölgəsində olarkən tabor komandirimizin şəhidlik zirvəsinin xəbərini eşitdim. Özü önə atılaraq əsgərini xilas edərkən qəhrəman igid kimi adını unudulmayan tarixə yazdırdı. Onun məhz öyrətdikləri bilikləri sayəsində tapşırıqları yerinə yetirməklə müvəffəq olduq. Onun döyüş meydanında nümunəvi davranışları çiyin-çiyinə döyüşməyi, qorxmazlığı hər birimiz üçün nümunə oldu. Onun istədiyi kimi sonadək döyüş tapşırıqlarını yerinə yetirib qələbə zəfərimizi qazandıq. Polkovnik-leytenant Mehman Şirvanov daim bizimlədi, onun qəhrəmanlığı heç bir zaman unudulmayacaq.



Fərid Zəkəryəyev daim yanında olan şəhid dostu Mehman Şirvanovu xoş xatirələrdə xatırlayır:



Şəhid Mehman Şirvanovun dostu Fərid Zəkəryəyev

Bəli, xalqımızın qəhrəman oğulları əlinə silah alıb qorxmadan düşmənlə mübarizədə qan udduran cəsurlar oldu. 44 günlük Vətən müharibəsində xalqımıza cəsur ürəkli, vətənpərvər övladları, qəhrəmanları bizlərə tanıtdı. Elə dostum polkovnik-leytenant Mehman Şirvanov kimi. Onun haqqında danışmaq mənə çox çətin, həm də ağırdı. Onla olan xatirələrimiz çoxdu. Onunla tez-tez döyüş bölgələrinə gedərdik. Demək olar ki, hər zaman yanında idim. Hərbidə tibb işində olsam da dostumla demək olar ki, bir addımlayardım. Birgə söhbət edib dərdləşərdik. O, əsl dost, yoldaş idi. Çox sadə, səmimi, canı yanan insan olmuşdu. Mehman Şirvanovda umumiyyətlə, yorulmayan və bir də bitməyən bir enerjisi vardı. Çox zəhmətkeş, gülərüz, səmimi insan idi. Hər bir əziyyətə qatlaşan zabit idi.

Elə son görüşümüzü xatırlayıram.

Vətən müharibəsi başlamadan bir gün öncə. 26 sentyabr səhər cağı idi. Hər birimizdən halaliıq edərək görüşdü. Arzusu, istəyi ən uca zirvəyə yüksəlmək idi. O, daim öz taboruna düzgün istiqamətlər verər, döyüş taktikalarını aşılayardı. Döyüşə qatlanmadan öncə son sözü o odu: **“Möhkəm olun, özünüzü qoruyun, biz qalib gələcəyik”** Silahına sarılıb öz taboru ilə birbaşa qəhrəmancasına addımladı. Öndə olan polkovnik-leytenant rabitə vasitəsilə şəhidlik zirvəsinə ucalmasını eşitdim. Xəbər bizi səssizliyə durğunluğa qərq etdi. Gözlərim doldu, bir tək komandirimizin sözlərini xatırlayıb ağlamamaqçün güclü dayandıq. Mübarizəmizi, qisasımızı almaq idi. Erməni vandalları

Azərbaycan ordusunun həm fiziki, həm hərbi gücünün yüksək səviyyədə olduğunu hiss etdilər. Ürək sirdaşım olan Mehman Şirvanovla elə o gündə xatirələrim bitdi. Onun son gülüşü, son sözünü heç zaman unutmuram. Polkovnik-leytenant Mehman Şirvanov elə qorxmazlığı, elə ən böyük cəsurluğu ilə xatirələrdə qaldı.



Şəhid Mehman Şirvanovun dostu Qabil Nadirov

Qabil Nadirov silahdaşı olan dostu Mehman Şirvanovun qəhrəmanlığından danışdı:

Bir qəhrəman dostum peşəkar zabit haqqında danışmaq mənə çox çətindi. 2019-cu ildən Polkovnik-leytenant Mehman Şirvanov tabor komandiri olduğu taborun və tabor komandirinin şəxsi heyətlə iş üzrə müavini vəzifəsində xidmət etmişəm. Bir tabor komandiri kimi çox savadlı, bacarıqlı şəxsi heyətinə nümunə olan komandir olmuşdu. O, bütün şəxsi heyət tərəfindən hörmət edilən, sevilən bir insan oldu. Mehman Şirvanov həm yoldaşlıqda, dostluqda etibarlı, sədaqətli insan idi. O, komandir olduğu tabor korpusun tək dağ briqadasının ən böyük və yüksək dağlıq əraziyə sahib olmağına baxmayaraq bütün postlara eyni qayğını, diqqət göstərirdi. Bizlər tabor komandirimizi taborun mərkəzində çox az görərdik. Çünki davamlı olaraq postlarda olardı. Demək olar ki, hər an nəzarət, diqqət edərdi. Və postlarda olan şəxsi heyətə qoyulan tapşırıqların yerinə yetirilməsində şəxsən özü iştirak edərdi. Olduğumuz ərazi çox yüksək olduğundan ilin 6 ayı qarlar altında olardı. Avtomobillə hərəkət etmək imkansız olmağına baxmayaraq davamlı piyada şəklində tabor komandirimizlə ən yüksək postlarda olardıq. Şəxsi heyətin məişət şəraitinə çox diqqət yetirərdi. Polkovnik-leytenant hər hansı bir problem gördüyündə dərhal həll edərdi. O taborun hər bir heyətinə



qayğı göstərərdi və hər bir əsgərlərilə fərdi danışardı. Elə insanlığına görə N saylı hərbi hissədə öz peşəkarlığına və təcrübəsinə görə fərqlənirdi. İşinə hər zaman məsuliyyətlə yanaşan tələbkar və qayğıkeş idi. Öz təcrübəsini biliklərini tabeçiliyində olan şəxsi heyətə aşılayardı. Onun daim bir sözü vardı: "Əsgər yatmaz, düşmən yatar". Bu sözü ilə hər zaman postlarda daim ayıq və hər şeyə hazır olmaqlarının vacibliyini vurğulayardı. Polkovnik-leytenant Mehman Şirvanov istəyi ən böyük zirvəyə ucalmaq idi. İstəyi tək illərin Vətən həsrətinə son qoymaq idi. Nəhayət ki, 27 sentyabr II Qarabağ müharibəsi əmri verildi. Polkovnik-leytenant Mehman Şirvanov öz taborunu idarə etmək üçün böyük qəhrəmanlığı ilə toboruna güc verərək ayağa qaldırdı. Taborumuz cəsur igid komandirimizdən güc alardı. Elə mərkəzi bölüyümüz ilk hücuma keçənlərdən oldu əmrə əsasən manqanın yarısını götürməyim və Gülüstan kəndinin içində hücuma hazırlaşmaq, bölüyə getməyim idi. Mehman Şirvanov öz taboru ilə döyüş bölgəsində öz igidliyini göstərdi. Bir neçə saat sonra rabitədən xəbər çox ağır oldu. Hər birimizə dəstək güc verən komandirimiz ən uca şəhidlik zirvəsinə ucaldı. Polkovnik-leytenant Mehman Şirvanov öz qəhrəmanlı ilə qəlbimizdə daim yaşayacaq.



Şəhid Mehman Şirvanovun döyüş yoldaşı Ramin Nuriyev

Mayor Ramin Nuriyev döyüş yoldaşını ən gözəl xatirələrdə xatırladı bizimlə:

Mənə doğma olan dostum olan şəhid Mehman Şirvanov haqqında danışmaq çox ağır, həm də qürurdu. 2001-ci ildən şərəfli hərb peşəsində xidmət edirəm. Bu əziyyətli, zəhmətli peşədə tanışlığımız 2010-cu illərə təsadüf edirdi. Həmin zamanlar Naxçıvan Muxtar Respublikasında eyni bölmədə xidmətdə olmuşuq. Onu tanıdığım gündən yaxı

münasibət, dostluğumuz başladı. Mehman Şirvanov səmimi, gülərüz, dostluqda sadaqətliyi ilə seçilirdi. Təlim zamanlarında hər zaman yüksək nəticəri ilə keçərdi. Çox vətənpərvər, el-obasını düşünən insan idi. Öz işinə məsuliyyətlə yanaşan hərbi qulluqçu idi. Tabeçiliyində müxtəlif zamanlarda iki dəfə xidmət etmişəm. Hər zaman hərbi qulluqçulara qarşı yüksək qayğı göstərərək problemlərini həll edərdi. Bir komandir olaraq xidməti vaxtlarında işində daim yüksək olmuşdu. Çalışırdı ki, şəxsi heyətin sosial-məişət şərati yaxşı olsun. Bir müddətdən sonra yerlərimiz fərqli oldu, amma buna baxmayaraq daim əlaqə saxlayardıq. Hər zaman danışanda vətən həsrəti onu çox rahatsız edərdi. İstədiyi tək torpaqlarımızın düşmənlərdən azadlığı idi. Mehman Şirvanovla sonrakı xidməti qarşılaşmağımız 15 yanvar 2020-ci ildə oldu. Elə həmin ildə polkovnik-leytenant Mehman Şirvanovun tabeçiliyində onun şəxsi heyətlə iş üzrə müavini vəzifəsinə təyin aldım. Onunla 44 günlük Vətən müharibəsi başlayan zaman döyüş əməliyyatlarımız eyni istiqamətlərdə idi. Bir zabit, peşəkar döyüşçü kimi qəhrəman idi. Hər zaman tabeliyində olan şəxsi heyyəti yüksək bacarıqla idarə edirdi. Öz vəzifə borcunu şərəf ləyaqətlə yerinə yetirərdi. Bəli Mehman Şirvanov bir zabit olaraq öz şərəfli xidmətini layiqincə yerinə yetirərək ən uca şəhidlik zirvəsinə ucaldı. Əsl peşəkar komandir kimi qəhrəmanlığı ilə unudulmaz qaldı qəlbimizdə.



Tərlan Həsənov da Vətən Müharibəsinin od-alovundan keçən igidlərimizdəndi. O, şəhid komandiri olan Mehman Şirvanovu xatirələrini belə xatırladı:



Şəhid Mehman Şirvanovun əsgəri Tərlan Həsənov

Polkovnik-leytenant Mehman Şirvanov haqqında danışmaq çox çətindi, qürurdu. 6 ay müddətində tanış olsam da sanki illərdi onu tanıyır kimi doğma oldu mənə. O, çox gülərüz, səmimi insan idi. İşinə məsuliyyətlə yanaşan və əsgərlərə çox diqqət edən komandir olmuşdu. Mənə hərdən deyərdi "Həsənov, ürəyin sıxılmır, - cavabım isə komandir hər şey yaxşıdı. O, çox həssaz sadə insan idi. Əsl peşəkar zabit olmuşdu. Hər zaman tabeçiyində olan şəxsi heyətlə danışar qazandığı bilik vərdişlərini, döyüş taktikalarını aşılayardı. Polkovnik-leytenant Mehman Şirvanov əsgərlərinə uğur qazanmaqı üçün vətətənpərvər olmaqlarını, hər an hər şeyə hazır olmaqlarını söhbətlər aparardı. Polkovnik-leytenant Mehman Şirvanovla xatirələrimiz çoxdu. Bir dəfə elə birgə göbələk yığmağa getmişdik. Topaladığımız göbələkləri Mehman Şirvanov özü hazırladı. Zarafatyana mən dedim ki, polkovnik, birdən göbələyi yeyib zəhərlənərik. Dedi: **"Həsənov biz böyüklükdə olan insanlara balaca göbələklər heç bir şey etməz".**

O, həm dostluqda, yoldaşlıqda çox sədaqətli idi. Mehman Şirvanov öz cəsurluğu ila Aprel döyüşlərində də mərdlik nümunəsi göstərmişdi. Tək istəyi Ali Baş Komandanın döyüş əmrini səbrsizliklə gözləyirdi. Elə son görüşümüz müharibə başlamadan öncə idi. Öz şəxsi heyətilə taborda hər kəsi topalayıb sözlərini dedi. "Biz heç

vaxt məğlub olmuruq Biz ya şəhid, qazi, ya da qalib oluruq.” Bu sözlər hər birimizə güc verirdi və döyüşə can atmağa çalışırdıq. Hər birimiz bir amalla addımladıq. Müqavimət nə qədər güclü olsa da biz hərbçilər əsgərlər əbədi, əzəli torpaqlarımızı düşməndən azad etməliydik. Öz cəsur igiliyi ilə adını tarixə yazdıran polkovnik-leytenant Mehman Şirvanov müharibənin ilk günündə ən uca şəhidlik zirvəsinə ucaldı. Onun sözlərilə tabor komandirin qisasını aldılar. Biz öz qələbəmizi zəfəfərimizi çaldıq. Hər zaman polkovnik-leytenanat Mehman Şirvanov döyüş yoldaşlarının qəlbində əbədi yaşayacaq.



Şəhid Mehman Şirvanovun dostu Vüsal Əhmədov

Vüsal Əhmədov ən xoş unudulmayan xatirələrdə qalan şəhid dostu Mehman Şirvanovu şərəflə xatırladı:

Belə bir söz var.... Dostluğun birinci şərti etibardır. Elə cəsur, etibarlı insanlardan olan şəhid polkovnik-leytenant Mehman Şirvanov kimi. Onla ilk tanışlığımız 2005-ci ildə başladı. Elə o illərin soyuq, şaxtalı dekabr ayı olardı. Mən və bir neçə əsgər yoldaşlarımla birlikdə Sumqayıt şəhər H.Z. Tağıyev adına qəsəbədə N saylı hərbi hissəyə təyinat almışdıq. Tabora catmağımız gecə saatlarında oldu. bir zabitin əsgərə necə qayğı və diqqətini görən zaman heyrətə gəlmişdim. Gələn hər əsgərlərini özü nəzarətində yerbəyer etmişdi. Mənim yuxum olmadığıçün bir xeyli Mehman Şirvanovla dərdləşdik. O qədər maraqlı xoş keçdi həmsöbətimiz, hec ayrılmaq istəmirdim. Bir komandir olaraq mənə dedi ki, səni öz taborumda görmək istəyərəm. Elə o gündən komandirimlə bir addımladım.



Çox xoşbəxt oldum ki, elə bir insan mənim komandirim oldu. Pər dəfə uca səslə əsgərlərinə səslənərdi: "hamımızın bir vətəni var. Oda Azərbaycandır. Ona görə də bir olmalıyıq. Amalımız bir olmalıdır, qisasımızı yağı düşməndən almalıyıq".

O, çox səmimi, dost-yoldaş yolunda canını fəda edən və canı yanan idi. Elə fürsət tapan zaman Mehman Şirvanovla söhbətləşməyə can atardım. Bir gün ikimiz idik. Sual verdim ki, komandir ailəli olarsız? Dedi yox. Dedim hərbiçisiz əziyyətli zəhmətli, işdəsiz ev iş. Dedi Əhmədov! "Hərbiçi ailəsi olmaq çox çətin, həm də şərəflidi. Döyüş başlayacaq mən də şəhid olacam. Ona görə də istəmirəm ailəm, övladım həyatda kiməsə möhtac qalsın. Təkliyi carəsizliyi ailəmə yaşatmaq istəmirəm. Tək düşündüyüm Qarabağ və torpaqlarımızın işğaldan azad olunmasıdı".

O, vətənpərvər, cəsur bir qəhrəman idi. Mehman Şirinovla xatirələrimiz çoxdu xatırladıqca sanki yenidən o illərdə qayıdıram. Demək 2006-ci ilin iyul ayları idi. 1 ilin əsgəri idim. Bölüyümüzdə rayondan gələn 9 ayın əsgəri vardı və maddi cəhətdən vəziyyəti hec yaxşı deyildi. Anası xəstə olduğucün evə getməli idi ama imkansızlığından səssiz dayanmışdı. əsgərinin carəsizliyini hiss edən Mehman Şirvanov yaxınlaşıb dedi: "Get evinə valideynlərin gözü yoldadı" elə əsgər dil açmaq istəyirdi ki, komandir. Mehman Şirvanov! **"əsgər mənim hər şeydən xəbərim var, anan xəstədi Allah şəfasını versin. Get ananın gözü yoldadır.. bilirəm ki, necə nigaran həsrətlə səni gözləyir. Gedib gəlmə xərclərini özüm həll edəcəm".** Elə sözlərini bitirən zaman əsgərini yola saldı. Mənə Qayıdan zaman ilk sözü o oldu. "Əhmədov bir bilsən ürəyim necə rahatlıq tapdı vicdanım rahatdı indi. Yaxşılıq heç bir zaman itmir. Mən bilirəm bir yataqda xəstə olan ananın əsgər balasını həsrətlə gözləməyini". Mehman Şirvanov vicdanlı, xeyirxah hər bir əsgərlərinin qayğısına

fərdi şəkildə yanaşan və problemlərini həll etməyə çalışan zabit idi. O, hər dəfə əsgərləri ilə danışan zaman deyirdi: mənim əsgərlərim istənilən hər zaman bir kiçik probleriniz olarsa mənə deyin. Valideynlərinizə deyib onları nigaran nərahat etməyin. əsgərlərinə qardaş, dost yoldaş olardı. Həqiqətən çox ağırdı həm də qürürdü Mehman Şirinovla xatirələri xatırlamaq. Dostumla son dəfə görüşümüz 8 sentyabr 2020-ci ildə oldu. Sanki elə son idi elə şey. Elə söhbət etdik dərdləşdik hər zaman olduğu kimi. Mənə dedi ki, Əhmədov müharibə olacaq məndə şəhid olacam. Sanki nə deyəcəyimi unutdum. Komandir hər şey yaxzşı olacaq yaxşı düşünün. Evə getmişdim dedi: gəl çıx təqaüdə. İsrar etdilər. Atama bütün vəsiyyətlərimi etdim şəhid olandan sonra əbədi yerimi göstərib gəldim. Tək nigaranlığım övladım ailəm gözləri bir ömür boyu məni axtacaqlar onları da Allaha əmanət etdim. Komandir belə düşünməyin dedim. Cavabında isə: Əhmədov məni ki, tanıyırsan illərdir müharibəni bu həyacanı gözləyirəm. Artıq o gün bü gündü. Geri dönüşü yoxdu bu yolun. Saqallaşıb görüşüb ayrıldıq.



Vüsal Əhmədov Şəhid Mehman Şirvanovun məzarı üstə



Elə son səsini sentyabrın 21-də telefonla danışarkən eşitdim. Dedi mənə ki, Əhmədov taboruma düşsən bir vuruşardıq. Çox istəyirdim ki, döyüş meydanındada birolaq. Sentyabrın 27-də müharibə başladı. Ağdamda Tərtərdə gedən döyüşlər Bərdə istiqamətində aydın şəkildə hiss olunurdu. Şiddətli gedən döyüşlərdə zəng etdim Mehman Şirvanova əlaqə saxlaya bilmədim. Çox acı ağrılı xəbəri eşidəndə ki, Mehman Şirvanov döyüşün ilk günü şəhid olub sanki bir anlıq hər şey dayandı gözümdə. Döyüş yoldaşı sirdaşı dostumu itirmək mənə çox çətin oldu. O, ən uca zirvəni qət edib şəhidlik zirvəsinə ucaldı. Onun daim düşündüyü və əmanət qoyub getdiyi Nuray balamıza taleyini gözəl arzulayırıq. O, hər zaman fəxr edəcək ki, bir qəhrəman atanın övladıdır.



Şəhid Mehman Şirvanovun dostu Ərzuman Əkbərov

Məktəb illərinin dostu olan Əkbərov Arzuman şəhid dostu olan Mehman Şirvanovu xoş xatirələrdə belə vəsf etdi:

Mən Mehmanla bir kənddə böyümüşük. Uşaqlığımız bir keçib bir oynardıq. Elə məktəbə də birlikdə gedib-gələrdik. O, məktəb illərində də çox çılqın, dəlisov oğlan idi. Heç nədən qorxmaz və çəkinməzdi. Şən, şıltaq keçən uşaqlığımız hərdən küçə-bacada qovalağa oyunları, gah da çərkişib-bərkiməyimiz elə incə dostluq tellərimizi daha möhkəm etdi. Mehman elə məktəb illərindədə nümunəvi davranışları ilə müəllimlərin yoldaşlarının hörmətini qazanmaqla yanaşı, ailəsinin başını daim uca etməyi bacarırdı. Yuxarı siniflərə qalxdıqca bir yeniyetmə kimi Mehmanın da arzuları planları məqsədləri vardı. Biz hər zaman yaxın dost

sirdaş olduq. 1997-ci ildə məktəbi bitirdikdən sonra Mehman hərb peşəsini seçdi və sənədlərini Ali Komandirlər məktəbinə verdi. Tətil vaxtlarında kəndə gələrkən görüşərdik yenə söhbət edib dərdləşərdik. O, kəndə gələndə çox sevinərdim. Yenidən qayıtmayan xoş unudulmayan uşaqlığımıza qayıdardıq.. O illər ki, bir daha geri gəlməyəcək..

O, 2002 ci ildən ömrünün 20 ilini Vətənə secdiyi şərəfli hərb peşəsində xidmət etdi. Tətil zamanı görüşəndə mənə dedi ki: "Qalıb davam etdirmək istəyirəm şərəfli peşəmi ordunun mənim kimi hərbiçilərə ehtiyacı var". Onun canında, qanında idi vətənə böyük istəyi. Artıq bir müddətdən sonra şərəfli zəhmətli peşəsində polkovnik-leytenant vəzifəsini almışdı. Bir dost yoldaş olaraq çox sevinirdim uğurlarına addımlarına. O, elə uşaq vaxtlarından çox iradəli, qürürlu idi.

Təlimlərdə bir çox uğurlar qazanmışdı. O əsl peşəkar zabit oldu və hərbi texnikanın sirlərini oxuyub araşdıraraq mənimsədi. Elə aprel döyüşlərində də böyük qəhrəmanlıqlar göstərərək seçilmişdi. Demək olarkı çox tez-tez danışardıq. Elə son əlaqəmiz 27 sentyabrda Vətən müharibəsi başlanan günü bir mesaj gəldi ki, "yazdım" və çoxlu sayda şəkilləri gəldi teefonuma belə tərəddüt içində qaldım. Elə bir iki saat keçdi o andan çox ağır çətin bir xəbər gəldi ki, Mehman Şirvanov şəhidlik zirvəsinə ucalıb. Məktəb illərimin yadigarı, can dostum xatirəsi unudulmayan şəkillərdə qaldı..

Atalarımız demişkən: İgid ölər, adı qalar. Elə polkovnik-leytenant **Mehman Şirvanov Vətənə olan sonsuz sevgisi ilə cəsurluğuyla unudulmayan tarixdə qaldı.**



İlyas Kərimov şəhid Mehman Şirvanovun uşaqlıq dostu olaraq xoş xatirələrini bizimlə bölüşdü:



Şəhid Mehman Şirvanovun dostu İlyas Kərimov

Həyatda yaxşı dostu olab insan xoşbəxtdir deyiblər. O, xoşbəxt insanlardan oldum ki, Mehman kimi dostum vardı. Günlərimin ən gözəl çağları elə Mehmanla keçib. 1993-1994 illər çox xoşbəxt saf uşaqlıq illərimiz keçmişdi. Mehman dərdlərimi rahatlıqla böldüyüm ürəyimə bir kədərli buludu çökəndə mənimlə birlikdə gözləri dolan dost idi. Əslində dostluq tamamən bir ruh uyğunluğudur deyiblər, elə bizim ruhumuz bir olduğucün bu qədər bağlı olduq bir birimizə.

Uşaq yaşlarından diqqətçil qürürlü idi. Onun hərbiyə marağı söhbət edərkən deyərdi ki, mən hərbiçi olacam. El-obamı torpağımı qoruyacam. Elə xasiyyəti kimidə sözləri əməlləri bərabər idi. O, nə qədər ağırxasiyyətli olardısa bir oqədərdə xoşxasiyyəti vardı çətin günün dostu idi. Mən hərbi xidmətimə yollandım o isə hərbi məktəbinə daxil oldu. Hər kəndə gələn zaman görüşərdik, dərdləşərdik, unudulmaz saf uşaqlığımızdan dəcəlliyimizi xatırlayardıq. Bir neçə müddətdən sonra Mehman Şirvanov əsl peşəkar zabit oldu. O, peşəkarcasına şərəfli hərb peşəsinə yiyələndi. Təlimlərdə keçdiyi əziyyətli yolları polkovnik-leytenant rütbəsinə qalxmışdı. Bir dost olaraq çox sevinirdim uğurlarına. Elə hər gələndə görüşəndə döyüşlərə atılmağı istəyindən danışardı. İstəyi o idi ki, ən uca zirvəni qət etsin. Mehmanla 2020-ci ilin iyul ayları idi əlaqə saxlamışdıq. Ona dedim ki, mənə bir forma gətir geyinmək üçün. Elə oldu ki, avqust ayında gəldi, kəndin evin yanında mənə formanı verdi. Dedi: “sənə forma gətirmişəm bu formanı

özümcün düzəltmişəm, amma sən geyinərsən". Nə demək istədiyini heç anlamadım. Bir yerdə evlərində qonaq oldum. Birlikdə və birdə qardaşı Nərimanla söhbətləşib dərdləşdik. Onun baxışlarını bu gün də göz önümə gələn zaman unuda bilmirəm. Sanki elə bil zahirən biznən daxilən isə yox, elə nəsə fikirləşirdi.

Sentyabrın 27 Vətən müharibəsi başlanan gün. Onu tanıyan hər kəs kənd əhli çox həyəcan içində idi. Bəlli idi ki, Mehman cılğın od alovdan qorxmayan ölümə dik baxaraq gedən biri idi. Elə günortaya yaxın idi. Çox acı kədərli xəbəri eşidəndə ki, can dostum ən uca şəhidlik zirvəsinə ucalıb dünya gözümdə durdu. Bir anlıq söz tapa bilmədim. Olub keçənlər son gəlişi nə demək istədiyini ürəyimdə anladım.

Mehman Şirvanov öz taboru ilə döyüş meydanına atılaraq, öndə gedən zabit kimi igidliyi ilə tarix yazdı. O tarix ki, gələcək nəsillərdə kitablarda dastanlarda unudulmayacaq.



Şəhid Mehman Şirvanovun kursant yoldaşı Rzayev Fəqail

Kursant yoldaşı olan Rzayev Fəqail şəhid Mehman Şirvanovun cəsurluğundan danışdı:

Mehman Şirvanovla tanışlığımız 1998-ci illərdə oxuduğumuz kursant illərindən olub. Elə o illərin ilk görüşünü xatırladım. İmtahana gəlirdim Astara-Bakı qatarında. Mehmanla eyni qatarda rastlaşdıq və səmimi söhbətimiz bizi dostluq yoluna çıxartdı. Çox səmimi xeyirxah xususiyyətlərə malik olan biri idi. Çox vətənpərvər, çılğın biri idi. 4 il bir yerdə oxuduq, bir yerdə



gəzdik çörəyimizi yarı böldük. Boş olan vaxtlarımızda söhbətləşib dərdləşdik. İdmanı çox sevdiyi üçün bir yerdə idmana da gedərdik. Təlim tədris mərkəzinin məktəbini bitirəndən sonra ixtisaslara bölündük. Bakı şəhəri N saylı hərbi hissəyə ilk təyinatını Mehman almışdı. Tez-tez görüşməsəkdə ama əlaqəmiz demək olardı ki, vardı. Onla görüşməyimiz təyinatdan sonra Müşviqabad qəsəbəsində oldu. Çox sevindim Mehmanı görməyimə. Bir yerdə dərdləşib illərin xatirələrinə qayıtdıq. Həqiqətən də elinə-obasına bağlı olan oğul idi. Millətini torpağını sevən zabit idi. O, bütün kollektivdə böyük hörmət qazanmış səmimi insan olaraq dostlarının xatirində əbədi iz qoydu. Mehmanla sonuncu dəfə 26 sentyabr əlaqə yaratdıq. Bir az zarafatyana danışdıq, dedim ki, qardaş özünü qoru. Bilirdim ki, dəlisovluğu, çılğınlığından geri qalmayan biri idi.

27 sentyabr Vətən müharibəsi başlanan günü çox ağır sarsıdıcı xəbərini alanda bir anlıq inanmadım çünki heç nədən qorxmayan insan idi. O, öz silahına sarılaraq taboruyla bərabər şərəflə vuruşaraq ən uca şəhidlik zirvəsinə ucaldı. Qısa, lakin şərəfli ömrünün 23 ilini Vətən yolunda qəhrəmancasına tarix yazdı. **Bir dostu, silahdaşı olaraq polkovnik-leytenant Mehman Şirvanovla fəxr edirəm.**



Şəhid Mehman Şirvanovun döyüş yoldaşı Nail Daşdəmirov

Çiyin döyüş yoldaşlarından olan Qarabağ ordenli Nail Daşdəmirov dostu şəhid Mehman Şirvanovla olan unudulmaz xatirələrini bizimlə bölüşdü:

Polkovnik - leytenat Mehman Şirvanov haqqında danışmaq həm çətin, həm də qürurdu. Belə bir atalar sözü var - yaxşı dost tapan, xəzinə tapmışdır demək ki. Bəli, mən fəxrlə deyə bilərəm ki, sanki bir xəzinə tapdım bu həyatda ki, Mehman Şirvanov kimi dostum və döyüş yoldaşım oldu. Onunla 2016-ci ildən N saylı hərbi hissədə çiyin-çiyinə xidmətdə olmuşuq. Hər ikimiz tabor Qərargah rəisi vəzifəsində çalışmışıq. Mehman Şirvanov sonra döyüş taborun bölmə rəisi vəzifəsində çalışdı. Xidməti vaxtlarında çox çalışqan bacarıqlı bir zabit idi. Bir dost yoldaş və qardaş kimi mənə çox yaxın oldu. O, əsl yoldaşlığı ilə bərabər imanlı dinli bir insan idi. Onu özümüzə böyük ağsaqqal qardaş bilirdik. Gözlərindəki gülüşü səmiyyəti və ən önəmli tükənməz enerjisi hər birimizə şəxsi heyətinə güc verirdi. O, aprel döyüşlərində də böyük mərdlik, qəhrəmanlıq göstərmişdi. Erməni vandalları Azərbaycan Ordusunun güclü əks-hücümları qarşısında çox duruş gətirə bilməyib qaçmağa üz qoymuşdular. Dostum Mehmanla 2019-cu ildən hər ikimiz tabor komandiri vəzifəsində çalışdıq. Demək olar ki, tez-tez görüşüb dərdləşərdik və ailələrimizdə bir-birlərinə çox doğma idi. Mehman həqiqətən bir peşəkar zabit idi. Ona verilən bir qayda olaraq tapşırıqları vaxtında və məsuliyyətlə yerinə yetirərdi. O, bir çox xarici ölkələrdə öz şərəfli peşəsini mənimsəyərək dərindən yiyələndi. Bir peşəkar zabit kimi yetişdi. Öyrəndiyi bilik və bacarıqlarını öz tabeliyində olan şəxsi



heyətinə durmadan öyrətməkdən yorulmurdu. O, çox dəlisov çılğın biri idi. Öz əsgərlərinə daim diqqət edən hər birinə fərdi yanaşan qağısına qalan komandir oldu. Onunla hər zaman şəxsi heyyəti kollektivi qürur duydu. Onunla görüşən zaman ilk sözü vardı: "Gözlədiyimiz gün gəlib çatsın ilk şəhid mən olacağam" Mehmanla elə sonuncu dəfə sentyabrın 25-də toplantıda görüşdük. Biraz söhbət etdik hər zaman olduğu kimi dərdləşdik. Yenidən bir daha dedi ki: "Ürəyim hiss edir ilk şəhid mən olacağam. O zirvəni qət etməyi arzulayıram və hazıram.

Bir can dostumu itirmək qorxusu düşdü canıma. Barışa bilmədim yanımda ikən yoxluq acısına. Heç düşünədə bilməzdim ki, müharibənin ilk günü elə taborumuzun ilk şəhidi çiyin can dostum Mehman Şirvanov olacaq. Ama onu hiss edərək hər birimizdən halallıq alaraq getmişdi. Bəli qələbə şəhidsiz ötüşmür. 27 sentyabr 2020-ci il. İllərlə hər birimizin gözlədiyi gün nəhayət ki, gəlib çatdı. İkinci Qarabağ Vətən Müharibəsi başladı. Mehman Şirvanov həmin gün Murovdağ silsiləsində bir çox yüksəkliklərin alınmasında qəhrəmanlıq göstərən zabit oldu. Onun hər zaman bir sözü vardı öz əsgərlərinə. **"Arxamca irəli"**. Öz sözünə sadiq olaraq elə də etdi özü irəlidə olaraq döyüş meydanına atılaraq adını tarixə yazdırdı. Elə müharibənin ilk günü rabitəyə xəbər yayıldı ki, polkovnik-leytenant Mehman Şirvanov ən uca zirvəyə ucaldı. Dostumu itirən gün sanki bir qolumu itirdim, gücüm bitmişdi sanki....

O, qarşısına qoyulan tapşırıqları məsuliyyətli şərəflə layiqincə yerinə yetirdi. Onun gözündə ürəyində qorxu olmadı elə olmayaraqda ölümədə gülərəkdən şərəflə getdi. Elə bir dostu zabiti komandiri itirmək öz heyətini çox sarsıtdı. Onlar demək olar ki, Mehman uğrunda qanı yerdə qalmamaq uğrunda irəliyə atıldılar. Qarabağ Ordenli polkovnik-leytenant Mehman Şirvanov bugündə bizimlədi. O, hər zaman döyüş yoldaşlarının ürəyində unudulmaz bir qəhrəman kimi xatırlanıb və anılacaq.



Şəhid Mehman Şirvanovun müəllimi İbad Azadov

Şəhid polkovnik - leytenant Mehman Şirvanovun müəllimi İbad Azadov şagirdinin vətənpərvərliyindən danışdı:

Mehman Şirvanov kəndimizdə sayılıb-seçilən bir ailədə dünyaya gəlmişdi. Bildiyimiz kimi ailə bir cəmiyyətdir. Gələcəyin qəhrəmanlığı alimləri görkəmli şəxsiyyətləri ilk tərbiyəsini dünyaya göz açdığı ailəsindən alır. Mehmanda şanslı övlad olmuşdu ki, gözəl valideynləri ailəsi olaraq bir vətəndaş kimi yetişdirmişdi. Mən Mehmanın müəllimi olaraq oxuduğu illərdə tanımışam. Mehman çox intizamlı, savadlı məsuliyyətli və vətənpərvər şagird olmuşdu. Özünün xarakteri sakit olsa da, ədalətsizliyə qarşı barışmaz idi. Onun fərqli baxışları gələcəyin xilaskarı müdriklik kamillik təsiri bağışlayırdı. Mehmanın vətənə olan sonsuz sevgisi onu məktəb yaşlarından hərbiçi olmağa sövq edirdi. Orta məktəbi uğurla başa vurduğundan sonra Bakıda Ali Hərbi məktəbinə daxil oldu. Onun gənc zabit kimi yetişməsi hər birimizin məktəb kollektivinin fəxrinə çevrilmişdi.

O kəndə gələn zaman müəllimləriylə görüşməyi unutmazdı. Hər zaman böyüyə-kiçiyə hörmət edən bir oğul idi. Xidmətlərini hər zaman ön cəbhədə keçirən dəlisov Mehman istəyi ancaq döyüş meydanına atılıb savaşmaq idi. O, hər zaman o günü gözləyirdi. Torpaqlarımızın işğalda olması onu hələ məktəb illərindən ürəyində qəzəb yaratmışdı. Elə istəyirdi tez böyüsün o zirvəyə çatsın. Onun gözləyi gün gəlib çatdı 27 sentyabr İkinci Qarabağ müharibəsi. Müharibənin ilk günü çox acı kədərli xəbərini eşidəndə bir anlıq inanmadıq. Qısa həyat yaşasada mənim sevimli Şagirdim qəhrəmancasına vuruşaraq haqq dünyasına qovuşdu. Polkovnik-leytenant Mehman Şirvanovla bütün təhsil aldığı Lənkəran rayon Ürgə kənd kollektivi fəxr edir. Mehman Şirvanov və digər şəhidlərimizin də məzarı şagirdlərimizin and yeridir.



İbtidai sinif müəllimi Nəzakət xanım Mehman Şirvanovla olan xatirələrini bizimlə bölüşdü:



Şəhid Mehman Şirvanovun ibtidai sinif müəllimi Nəzakət xanım

Sevimli şagirdim haqqında danışmaq həm ağır, çətin bir hissdi. Onun ruhu qarşısında danışmaq mənə çox ağırdi, həm də qürurdu. Mehmanın ailəsi ilə bir kənddə qonşu olmuşuq. Onun məktəbə ilk gəlişini xatırlayıram. Mehman arıq cılız bir uşaq anasının kiçik əllərilə tutub məktəbə qədəmlərini qoymuşdu. Onun ilk sinif partasına əyləşməyi, ürkək baxışları bu gün də gözümün önündədi. O, çox çalışqan ağıllı tərbiyəli şagird olmuşdu. Onu öz övladım qədər çox istəyirdim. Çox mehriban, səmimi, yoldaşları ilə hər şeyi bölüşən şagird idi.

Mehmanın hazırcavablığı, mərdliyi sanki deyirdi ki, gün gələcək bütün xalq bu balaca oğlanı bütün xalq tanıyacaq. Öz cəsurluğu ilə dillər əzbəri olub dastan yazacaq. Bəli, elə də oldu. Mehman Şirvanov məktəbi bitirib öz seçdiyi şərəfli hərbçi peşəsinə daxil oldu. Kəndə gələn zamanlar müəllimlərini yad etməyi unutmazdı. Görüşəndə də daim deyərdi ki, biz bir amalla xidmət edirik vətənimizin azadlığı uğrunda. Sanki can atırdı o zirvəyə.

Müharibə başlanan gün 27 sentyabr çox kədərli xəbərlə acdıq. Mehman Şirvanov öz cəsur qəhrəmanlığı ilə tarix yazdı. Dahi Demokratın dediyi kimi: **“Elə yaşamalısan ki, öləndən sonra ölməyəsən”.** Üçrəngli bayrağımız əbədi yüksəkliklərə qalxdı. 30 ilin nisgilinə, həsrətinə son qoyuldu. Düzdü, azad olunan yerləri Mehman Şirvanov görmədi, amma adını unudulmayan tarixə yazdırdı. Bu gün addım atdığı məktəb Polkovnik-leytenant Mehman Şirvanovu böyük ehtiramla yad edir.



Şəhid Mehman Şirvanov anası ilə



Şəhid Mehman Şirvanovun
qardaşı Nəriman Şirvanov












29/09/2009



Mehman Şirvanov 2016-ci ilin mart ayında Yexlax rayonuna N saylı hərbi hissəyə taborun qərargah rəisi vəzifəsinə təyin olunmuşdu. O, 2016-ci il Aprel döyüşlərində Tərtər rayonunun müdafiəsində qəhrəmancasına iştirak etmişdi. Öz igidliyinə görə hərbi hissənin döyüş əməliyyatı şöbəsinin rəisi vəzifəsinə təyin edilmişdi. Şərəfli peşəsini sevən canında, qanında Vətən eşqi olan zabit Mehman Şirvanov 2019-cu ildə Goranboy rayonunda yerləşən N saylı hərbi hissəyə tabor komandiri vəzifəsinə təyin olundu. Mehman Şirvanov Elə həmin ildədə Polkovnik-leytenant hərbi rütbəsi ilə təltif olundu. Bir zabit kimi 20 ildən artıq müddətdə vətəninə, xalqına, dövlətinə qüsursuz xidmət etdi. O, xidməti işlədiyi vaxtlarda dəfələrlə medallarla, təltiflərə layiq görülmüşdü:

Hələ xidməti zamanında Mehman Şirvanov 26.06.2008-ci ildə Azərbaycan Silahlı Qüvvələrinin 90 illiyi yubiley medalı ilə.

26.06.2010-cu ildə Qüsursuz xidmətə görə 3 dərəcəli medalı ilə.

26.06.2013-cü ildə Azərbaycan Silahlı Qüvvələrinin 95 illiyi medalı ilə.

26.06.2015-ci ildə Qüsursuz xidmətə görə 2-ci dərəcəli medalı ilə.

26.06.2018.ci ildə Azərbaycan Silahlı Qüvvələrinin 100 illik yubiley medalı ilə.

20.06.2020-ci ildə Qüsursuz Xidmətə görə 1-ci dərəcəli medalı ilə təltif olunmuşdur.

İgid qəhrəmanımız olan polkovnik-leytenant Mehman Şirvanov yumruq boyda kiçik ürəyində böyük bir sevgini Vətən, torpaq, el-obasını qorumaqçün torpaqlarımızın azadlığı üçün mübarizə apardı. Ən böyük arzularından olan torpaqlarımızı azad etmək və qaçqın-köçkün damğasını yurd həsrətlilərimizin üzərindən götürmək. İllərlə həsrətlə gözlədiyi an nəhayət ki, gəlib çatdı. *27 sentyabr 2020-ci il*

Azərbaycan Respublikasının ərazi bütövlüyünün bərpası uğrunda İkinci Qarabağ müharibəsi başlayır. Elə öndə gedən bir tabor komandiri olaraq ürəyində Vətən eşqi, qələbə əzmi ilə bir peşəkar komandir olaraq rəşadətlə mübarizə aparır. Öz taboru ilə öndə olan zabit kimi düşmənlə vuruşur. Yağı düşmənin canlı qüvvəsini məhv edir, zirehli texnikalarını sıradan çıxarır. Azərbaycan Silahlı Qüvvələrinin cəsur döyüşçüsü, qeyrətli Vətən oğlu Polkovnik-leytenant Mehman Şirvanov müharibənin ilk günündə önə atılan əsgərlərini qoruyan, canını fəda edən qəhrəman zabitlərdən olur.

O, 27 sentyabr 2020-ci ildə Azərbaycan Respublikasının ərazi bütövlüyü bərpası üçün canından, qanından keçərək Murovdağ yüksəkliyini erməni təcavüzkarlarının işğalından azad edərək qəhrəmancasına ən uca şəhidlik zirvəsinə ucalır. Tabor komandiri olan polkovnik-leytenant Mehman Mirəziz oğlu Şirvanov ölümündən sonra medallarla təltif olunmuşdu. O, ölümündən sonra 9 dekabr **"Qarabağ ordeni"** ilə təltif edilmişdi.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2020-ci il 15 dekabr tarixli 2349 nömrəli sərəncamı ilə Şirvanov Mehman Mirəziz oğlu "**Vətən uğrunda medalı"** ilə təltif edildi.

Azərbaycan Respublikasının Prezidentinin 2021-ci il 24 iyun tarixli 2720 nömrəli sərəncamı ilə polkovnik-leytenant mehman Şirvanov **"Suqovuşanın azad olunmasına görə medalı"** ilə təltif edilmişdir.

Bu gün Lənkəran rayonunun Ürgə kəndində şəhidlərin xatirəsinə tikilmiş bulaq abidə kompleksi ucalmışdır. Ürgə kəndi I Qarabağ Müharibəsində və 44 günlük Vətən müharibəsində 5 şəhid vermişdir. Onlardan **Zamanov Teymur Cəlal oğlu** I Qarabağ müharibəsinin şəhidi, **polkovnik-leytenant Mehman Şirvanov Mirəziz oğlu, İbadlı Araz Babəli oğlu, İbadzadə Zabil Fikrət oğlu və Mirzəhüseyn Natiq Balamirzə oğlu** 44 günlük Vətən müharibəsində öz qanlarıyla şərəfli tarix yazdılar.






VƏTƏN UĞRUNDA


SUQOVUŞAN
3 OKTYABR 2020


AZƏRBAYCAN
100
1918 ORDUSU 2018


QARABAĞ


1918
2008
90

AZƏRBAYCAN RESPUBLİKASI
SİLAHLI QÜVVƏLƏRİNİN
TƏLİM VƏ TƏDRİS MƏRKƏZİ

2001
TƏLİM VƏ TƏDRİS MƏRKƏZİ

ZABİT HEYƏTİNİN TƏKMİLLƏŞDİRMƏ
KURSUNU BİTİRMƏ HAQQINDA

SERTİFİKAT
№ 15174



Rütbəsi	: Baş leytenant
Soyadı	: Şirvanov
Adı	: Mehman
Atasının adı	: Mirəziz
Doğulduğu yer	: Lənkəran
Doğulduğu tarix	: 24.02.1980
İxtisası	: Motoatıcı
Bitirmə balı	: 76,20
İxtisas dərəcəsi	: 4 / 11
Ümumi dərəcəsi	: 18 / 119

Yuxarıda adı göstərilən zabit Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində 15.09.2009-cu il tarixdən 24.10.2009-cu il tarixə kimi fəaliyyət göstərən *motoatıcı taborun qərargah rəisinin maddi - texniki təminat üzrə köməkçisi* kursunu bitirmişdir.

Hüqar KƏRİMOV
polkovnik
MƏRKƏZ RƏİSİNİN
TƏDRİS İŞLƏRİ ÜZRƏ
MÜAVİNİ-ŞÖBƏ RƏİSİ

Fikrət İBRAHİM-ZADƏ
polkovnik
MƏRKƏZ RƏİSİ

ROMÂNIA
MINISTERUL APĂRĂRII
PROGRAMUL DE ÎNVĂŢARE A LIMBILOR STRĂINE

P.I.L.S.

Departamentul de Limbi Străine – Universitatea Naţională de Apărare „Carol I"
(denumirea centrului principal sau secundar)

Se acordă

DIPLOMĂ DE ABSOLVIRE

D-nei (D-lui) Lt. SHIRVANOV MEHMAN MIRƏZIZ

în urma îndeplinirii obiectivelor cursului intensiv de învăţare

a limbii engleză-intermediar, **cu durata de** 19 săptămâni

organizat în perioada 07.01.-16.05.2008 **în**

Departamentul de Limbi Străine – Universitatea Naţională de Apărare „Carol I"
(denumirea centrului) - (localitatea)

Şeful Centrului Directorul Departamentului de Limbi Străine – U.N.Ap. „Carol I" – Bucureşti
Colonel
Lect.univ. Anca HÎRJEU

Seria D **Nr** 08825

Data eliberării: Anul 2008, **Luna** 05, **Ziua** 16



TURKISH LAND FORCES TRAINING AND DOCTRINE COMMAND
COMBAT SIMULATION AND LEADER TRAINING CENTER
ETERNITY – 2009

In Recognition of Outstanding Achievement during Exercise "ETERNITY–2009" (28 September- 02 October 2009) In Turkey This Award Is Presented To

1st Ltc. Mehman ŞIRVANOV

COL. NURİ CANKIYMAZ
EXERCISE COMMANDER



Bütün məqsədlərimiz güclü ordu yaratmaqdır. Biz bunu edirik, yaradırıq və daha da möhkəm orduya malik olmalıyıq.

İlham Əliyev
Azərbaycan Respublikasının Prezidenti,
Silahlı Qüvvələrin Ali Baş Komandanı.



Mayor

ŞİRVANOV MEHMAN MİRƏZİZ oğlu

Sizi, rəhbərlik etdiyim kollektiv və şəxsən öz adımdan 24 fevral – ad gününüz münasibəti ilə səmimi qəlbdən təbrik edirəm. Sizə möhkəm can sağlığı, uzun ömür, xoşbəxtlik, vətənimizin tərəqqisi və ordumuzun gücləndirilməsi naminə şərəfli xidmətinizdə uğurlar arzulayıram.

Hörmətlə:

708 nömrəli hərbi hissənin komandiri
polkovnik R. Qapaqov

24.02.2019-cu il


AZƏRBAYCAN RESPUBLİKASI
SİLAHLI QÜVVƏLƏRİ
TƏLİM VƏ TƏDRİS MƏRKƏZİ
ZABİT İXTİSAS
KURSUNU BİTİRMƏ HAQQINDA
SERTİFİKAT №1514
Rütbəsi : LEYTENANT
Adı : MEHMAN
Soyadı : ŞİRVANOV
Atasının adı : MİRƏZİZ
Doğulduğu yer : LƏNKƏRAN
Doğulduğu tarix : 24.02.1981
Daxil olduğu tarix : 01.09.2002
İxtisası : MOTOATICI
Bitirmə balı : 83,012
İxtisas dərəcəsi : 38 / 104
Ümumi dərəcəsi : 106 / 389




FƏXRİ FƏRMAN
Mayor Şirvanov Mehman Mirəziz oğlu
Döyüş hazırlığında əldə etdiyi yüksək nailiyyətlərə və
Azərbaycan Ordusunda "Ən yaxşı təlim obyekti" adı
uğrunda keçirilən müsabiqədə fərqləndiyinə görə
TƏLTİF OLUNUR.
Müdafiə nazirinin birinci müavini –
Silahlı Qüvvələrin Baş Qərargah rəisi
Nəcməddin Sadıkov
general-polkovnik
2018-ci il



FƏXRİ FƏRMAN

kapitan

ŞİRVANOV MEHMAN MİRƏZİZ oğlu

Döyüş və ictimai-siyasi hazırlıqda əldə etdiyi nəaliyyətlərə və eləcədə "28 May-Respublika Günü" münasibəti ilə təltif olunur

Vaqif SƏFƏROV
polkovnik-leytenant
HİSSƏ KOMANDİRİ

28.05. 2010 – cu il



FƏXRİ FƏRMAN

mayor
Şirvanov Mehman Mirəziz oğlu

31 dekabr Dünya Azərbaycanlılarının Həmrəylik günü və Yeni il bayramı münasibəti ilə döyüş hazırlığında, qoşun xidmətinin təşkilində və hərbi intizamın möhkəmləndirilməsində əldə etdiyi nailiyyətlərə görə

TƏLTİF OLUNUR

polkovnik *Oruc Abdullayev*

31.12.2016-cı il



FƏXRİ FƏRMAN

Baş leytenant

ŞİRVANOV MEHMAN MİRƏZİZ oğlu

Döyüş və ictimai-siyas hazırlıqda əldə etdiyi nəaliyyətlərə və eləcədə "Novruz bayramı" günü münasibəti ilə təltif olunur

Vaqif SƏFƏROV
polkovnik-leytenant
HİSSƏ KOMANDİRİ

20.03. 2009 – cu il



FƏXRİ FƏRMAN

Mayor Şirvanov Mehman Mirəziz oğlu

Döyüş hazırlığında əldə etdiyi yüksək nailiyyətlərə və Azərbaycan Ordusunda "Ən yaxşı təlim obyekti" adı uğrunda keçirilən müsabiqədə fərqləndiyinə görə

TƏLTİF OLUNUR.

Müdafiə nazirinin birinci müavini –
Silahlı Qüvvələrin Baş Qərargah rəisi

general-polkovnik Nəcməddin Sadıkov

"__" _____ 2018-ci il



FƏXRİ FƏRMAN

mayor

Şirvanov Mehman Mirəziz oğlu

"Qurban bayramı" münasibəti ilə döyüş hazırlığında, qoşun xidmətinin təşkilində və hərbi initzamın möhkəmləndirilməsində əldə etdiyi nailiyyətlərə görə

TƏLTİF OLUNUR

Oruc Abdullayev

polkovnik

02.09.2017-ci il



FƏXRİ FƏRMAN

MAYOR

ŞİRVANOV MEHMAN MİRƏZİZ oğlu

Hərbi hissənin yaranmasının 26-cı ildönümü münasibətilə, döyüş hazırlığının yüksəldilməsi və hərbi intizamın möhkəmləndirilməsi istiqamətində əldə etdiyi nəticələrə görə

TƏLTİF OLUNUR

708 nömrəli hərbi hissənin komandiri

polkovnik-leytenant Elşən Qapaqov

" 04" mart 2018-ci il

Vüqar Səfərov

Mən Həşimov Poladın əsgəri olmuşam.Allah məkanını behişt eləsin,çox sadə və insan adam idi qısaca.Ancaq onun hərbi hissəmizdə sevdiyi bir zabit var idi,onun da adını mən qeyd edim,tanımayanlar tanısın. Hazırda Naxçıvanda düşmənlə üz-üzə xidmətdədir,Şirvanov Mehman Mirəziz oğlu.Hardasa indi mayor olmalıdır,ən yaxşı halda Pk/Leytenantdır.Allah ordumuza belə savadlı,vətənpərvər zabitləri çox görməsin (bundan sonra)


AZƏRBAYCAN RESPUBLİKASI
ORDENİNİN VƏSİQƏSİ
№ I-62
Azərbaycan Respublikası Prezidentinin
2020-ci il 9 dekabr tarixli
2338 nömrəli Sərəncamı ilə
Şirvanov Mehman
Mirəziz oğlu
(ölümündən sonra)
"QARABAĞ"
ordeni
İLHAM ƏLİYEV
Azərbaycan Respublikasının Prezidenti



Şəhid Mehman adını
Ucaltmaqçün can oldun.
Tarixə adın yazıb,
Torpağa bir pay oldun.



Yığılmağa verilmiş 25.01.2023
Çapa imzalanmış 12.02.2023
Sifariş 69
Sayı 200 nüsxə
Kağız növü-Ofset-1
Kitab hazır diapozitivlərdən çap edilmişdir.
Bakı, "Günəş-MMC" - 2023